Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

15 YANVAR 2020-ci il

№ 6 (4137)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# 9 İL ƏVVƏL AZƏRBAYCANIN BMT MÜSTƏVİŞİNDƏ ERMƏNİSTANIN «BURNUNU NECƏ ƏZDİYİ» İNDİ AÇILIR...

■ səh. 9 ■

Prezident Əliyevin Azərbaycan və Ermənistan arasında apardığı müqayisə ölkəmizin beynəlxalq mövqeyini daha da gücləndirəcək

■ səh. 5 ■

Prezident bankların kredit özbaşınalığına son qoyulması üçün qəti tapşırıq verdi

■ səh. 5 ■

Uçot dərəcəsi düşürsə, kredit faizləri niyə düşmür - əslində, Prezidentin məntiqi sualı Elman Rüstəmovadır...

■ səh. 6 ■

Seçkiyə görə öz dövlətinə pislik haqda çağırış edən siyasətçi - İlqar Məmmədov...

■ səh. 4 ■

ABŞ - İran gərginliyi nefti 100 dollara qədər bahalaşdıra bilər

■ səh. 10 ■

Regional təcrid təcavüzkar Ermənistanın çöküşünü sürətləndirir

■ səh. 11 ■

Bankların faiz siyasəti yenə problem yaradır...

■ səh. 13 ■

"Atəşgah" və "Odlar yurdu" sığorta şirkətləri ev sahiblərinə hədələyici mesajlar göndərməyə başlayıb...

■ səh. 6 ■



■ səh. 2 ■

## İlham Əliyev Azərbaycanın 40-50 il sonrakı vəziyyəti üçün çox vacib olan bir plandan danışdı



Yol Polisi sistemində əsaslı kadr dəyişiklikləri nazirin ümumən polisin reytinqinə işləyən mühüm islahat layihəsi kimi...

■ səh. 4 ■



Paşinyanın orduya münasibətindən narazılıq artır - «...o həqiqətən də yalançıdır»

■ səh. 7 ■

Müşavirədən sonrakı ən maraqlı ovqat - sosial yardımları mənimsəyən yeni başçı həbsləri ola bilər...

■ səh. 8 ■

■ səh. 3 ■

"Dövlət başçısı bütün ölçü parametrləri üzrə ölkəmizin Ermənistanı böyük fərqlərlə üstələdiyinə hamını inandırdı"



■ səh. 3 ■

Azərbaycanın borc götürdüyü bəzi xarici bankların pulları vaxtından xeyli qabaq özlərinə qaytarılacaq - ölkəmizin daha bir güc göstəricisi...



■ səh. 7 ■

Ermənilər daha bir yalanın ifşasından rüsvay olacaq - Azərbaycanda ermənifobiya?



■ səh. 12 ■

Ermənistandan son yüz ildə qovulmuş soydaşlarımıza Bakıda "Deportasiya qurbanları abidəsi"...



■ səh. 15 ■

Min manat maaş alan Azərbaycan müəllimləri 16 yüksək maaş alan ölkələrin müəllimləri sırasına niyə düşmədi...



# İlham Əliyev Azərbaycanın 40-50 il sonrakı vəziyyəti üçün çox vacib olan bir plandan danışdı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı bildirib ki, ölkənin sürətlə artan əhalisi ilə bağlı konkret proqram və planlar hazırlamaq lazımdır:**

"Dövlət investisiya proqramının digər xüsusiyyəti ondan ibarətdir ki, bu, iş yerləri yaradan və mövcud olan iş yerləri saxlayan bir prosesdir. Keçən il ölkəmizdə 98 min yeni iş yeri yaradılıb. Bu, böyük bir rəqəmdir. Ancaq yenə də deyirəm, əhali 100 min artıb və hər il 100 min nəfər artacaq. Nə qədər çox əhali artsa, növbəti illərdə illik artım da çoxalacaq. Biz indi bunu əhalisi sürətlə artan ölkələrin timsalında görürük. Bu, böyük problemlər gətirir. Artan əhali böyük üstünlükdür, təbiidir və eyni zamanda, bizim iqtisadi siyasətimizin və ölkədə mövcud olan sabitliyin təzahürüdür. Ancaq, eyni zamanda, bu, özlüyündə böyük problemlər də ehtiva edir. Hazırda çox sürətlə artan ölkələrin problemləri təhlil edilməlidir. Bu, təkcə İqtisadiyyat Nazirliyinin işi deyil. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əmək resursları ilə bağlı, Kənd Təsərrüfatı Nazirliyi, digər aidiyyəti qurumlar, hesab edirəm ki, Nazirlər Kabineti bu məsələ ilə bağlı ciddi təhlil aparmalıdır və biz proqnozu bilməliyik. Bizim resurslarımızı dəqiq müəyyən etməliyik. Bizim mövcud ərazimiz, əkin sahələrimiz, təbii resurslarımız bəllidir. Onların gələcəkdə dəyişməsi mümkün deyil. Ona görə bütün bunlar hesablanmalıdır ki, 20 ildən sonra, 30 ildən sonra hansı vəziyyətlə üzləşəcəyik.

Yenə də deyirəm, hazırda əhalisi sürətlə artan ölkələrin təcrübəsi dəqiq təhlil edilməlidir. Beynəlxalq maliyyə qurumları ilə birlikdə biz uzunmüddətli strategiyanı işləməliyik. Mən yenə də deyirəm, indi bizim vəsaitə ehtiyacımız yoxdur. Amma biz beynəlxalq maliyyə qurumları ilə ona görə sıx əməkdaşlıq edirik ki, onlarda böyük təcrübə var. Onlar dünyanın bütün yerlərində fəaliyyət göstərirlər. Bu problem təkcə bizim problemimiz deyil. Düzdür, bu gün bu problem mövcud deyil.



Əhali artmalıdır. Amma bir gün bu, problemə çevriləcək. Ona görə bizim iqtisadi artımımız artan əhaliyə uyğun olmalıdır".

Göründüyü kimi, ölkə başçısı Azərbaycanın gələcəyi ilə bağlı olduqca vacib detalların araşdırılmasını, indidən lazımi tədbirlərin görülməsinin zəruriliyini qeyd edir. Ekspert Elşən Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, əhalisinin sayı sabit şəkildə artaraq 10 milyona çatan ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla demoqrafik inkişafa təkan verir: "Dünyanın bir çox ölkəsində əhali sayında azalma müşahidə edildiyi halda, Azərbaycanda əhalinin artımı davam edir. Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əminamanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də davamlı olaraq yaxşılaşması özünü göstərir. Bu amillər isə demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır. 2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayı 18 faizdən çox və ya 1 milyon 731 min nəfər artıb. Azərbaycanda hər il doğulanların sayı artır, misal üçün 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. Müsbət miqrasiya saldosu davam edir. 2018-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı gedənlərin sayından iki dəfədən çox olub. 2003-cü ildə ölkədə doğulanda gözlənilən ömür uzunluğu 72,3 yaş (o cümlədən, kişilər arasında 69,5 yaş, qadınlar arasında 75,1 yaş) idisə, 2018-ci ildə bu göstərici 75,6 yaşa (o cümlədən, kişilər arasında 73,1 yaşa və qadınlar arasında 77,8 yaşa) çatıb.

Əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri, idman kompleksləri istifadəyə verilir. Dövlət başçısı "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda bildirib: "Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər. Ancaq, əlbəttə, biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətli getsin, artan əhali işlə təmin olunsun".

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli, 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanmaqla, ölkəmizdə davamlı demoqrafik inkişafın təmin edilməsi üçün əhali sakinliyi və demoqrafik inkişaf sahəsində yeni Dövlət Proqramı layihəsi hazırlanıb ki, layihədə ailə institutunun möhkəmləndirilməsi və ailə dəyərlərinin təbliği, ailələrə, xüsusilə gənc ailələrə sosial-iqtisadi dəstəyin gücləndirilməsi, əhalinin reproduktiv sağlamlığının, habelə ana və uşaqların mühafizəsinin gücləndirilməsi, həyat şəraitinin təhlükəsizliyinin yüksəldilməsi, miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi kimi prioritet istiqamətlər müəyyən olunub.

Bununla yanaşı, dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyllərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir.

Hazırda ölkəmizdə demoqrafik vəziyyətin qiymətləndirilməsi və təkmil proqnozlaşdırma metodologiyasının yaradılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi BMT-nin Əhali Fondu ilə birgə işlər aparır. Göründüyü kimi, Prezident bu məsələdə beynəlxalq təcrübənin dərindən öyrənilməsinin zəruriliyini xüsusi vurğuladı. Bizim yuxarıda sadaladığımız faktlardan görünür ki, ölkəmiz bu istiqamətdə daxili resursları hesabına əlindən gələn nə varsa, edir. Ancaq ölkəmizin 30-40 illik inkişafını düşünürüksə, bu istiqamətdə daha dolğun təhlillər aparmalıyıq".

***Məhəmmədəli QƏRİBLİ***

**Prezident İlham Əliyevin 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə Azərbaycanla Ermənistanı müqayisə etməsi müasir, inkişaf etmiş ölkələrə xas olan bütün ölçü parametrləri üzrə ölkəmizin Ermənistanı böyük fərqlərlə üstələdiyinə hamını inandırdı.**



# Aydın Quliyev: "Dövlət başçısı bütün ölçü parametrləri üzrə ölkəmizin Ermənistanı böyük fərqlərlə üstələdiyinə hamını inandırdı"

Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, müşavirədə Azərbaycanın iqtisadi, siyasi, hərbi, mədəni, biznes və beynəlxalq inteqrasiya müstəvisində çox uğurlu inkişaf yolu keçdiyi bütün dünyaya bir daha nümayiş etdirildi: "Prezident iki ölkənin inkişafını və tənəzzülünü o qədər çoxsaylı və dəqiq faktlarla əsaslandırdı ki, onları təkrar etmək yox, ifadə etdiyi məzmuna diqqət yetirmək kifayətdir. Saysız parametrlərin hər biri üzrə iki ölkənin fərqi bəzən hətta 10 dəfədən çox olmaqla Azərbaycanın xeyrinədir. Azərbaycan Prezidentinin gətirdiyi müqayisəli rəqəmlər Azərbaycanın yüksək, Ermənistanın isə utancgətirən aşağı vəziyyətdə olduğunu xarakterizə edir.

Prezident İlham Əliyev Ermənistanın həqiqi vətənpərvər qüvvələrinə bu ölkənin nə qədər miskin vəziyyətdə olduğuna dair sanballı düşüncə materialları verdi. İlham Əliyevin Azərbaycanı və Ermənistanı faktlarla müqayisə etməsi Ermənistanda hələ uzun müddət iqtidar və müxalifət ideoloqları tərəfindən müzakirə olunacaq. Dövlət başçısının məntiqli və faktoloji müqayisəsinin Ermənistanda keçmiş və indiki hakimiyyətlər əleyhinə yeni böyük etiraz dalğası doğuracağı şübhəsizdir".

A.Quliyev qeyd edib ki, Azərbaycan Prezidentinin "Ermənistan bu gün bizim səylərimiz nəticəsində siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanıdır" fikri bu ölkənin daxili və beynəlxalq vəziyyətinə dəyişdirici təsir gücünə malik strateji xarakterlidir: "Prezident İlham Əliyev Ermənistanın bir dövlət kimi tənəzzülü və Azərbaycandan çox geridə qalmasını bu ölkənin təcavüz və davakar siyasəti ilə klassik şəkildə əlaqələndirə bildi. Dünya bir daha gördü ki, hətta işğala məruz qaldığı şəraitdə də Azərbaycan stabil inkişaf gücünə malik olduğu halda, Ermənistan təcavüzkar siyasət apardıqca onun daha dərin iflasa gedişi qaçılmaz olacaq. Əminəm ki, indiyə qədər Ermənistanın özündə onun Azərbaycanla müqayisədə bu qədər rüsvayçı geriliyini sübut edən çoxsaylı faktlar bir arada təqdim edilməmişdi. Azərbaycan Prezidenti erməniləri içində yaşadığı fəlakətləri onların özünə çox təsirli səviyyədə göstərdi. Ermənistan əhalisi Prezident İlham Əliyevin faktlarından sonra Paşinyan kimi rəhbərlərin onları illərlə necə aldatdıqlarına bir daha əmin olacaq. Paşinyanın bir neçə gün əvvəl guya Ermənistanın ÜDM səviyyəsinə görə Azərbaycandan üstün olması barədə Dünya Bankının adından uydurduğu yalan ölkənin öz içində ifşa olunandan sonra o, növbəti sarsıdıcı zərbəni Azərbaycandan aldı".

**Ekspert vurğulayıb ki, ermənilər özlərinə hörmət qoysa, onları bu günə salan və böhranı daha da dərinləşdirən hakimiyyəti yıxmaq üçün ayağa qalxar, əslində bu perspektiv istisna olunmur.**

---

**"Kreditorlarla danışıqlar aparıla bilər ki, biz bu borcları vaxtından əvvəl qaytaraq. Çünki hesab edirəm ki, xarici dövlət borcu nə qədər aşağı olsa, o qədər yaxşıdır". Bunu Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı deyib.**



# Azərbaycanın borc götürdüyü bəzi xarici bankların pulları vaxtından xeyli qabaq özlərinə qaytarılacaq - ölkəmizin daha bir güc göstəricisi...

## *Ruslan Atakişiyev: "...beynəlxalq maliyyə qurumları əks arqument qoya bilməzlər"*

Ölkə başçısının sözlərinə görə, Azərbaycanın xarici borcu aşağı səviyyədədir: "İndi bizim xarici dövlət borcumuz onsuz da çox aşağı səviyyədədir, 17 faiz ətrafında və bu il daha da düşəcək. Ancaq bizim maliyyə imkanımız var ki, tez bir zamanda xarici borcumuzu daha da endirək. Çünki, qeyd etdiyim kimi, təkcə keçən il biz 6,4 milyard dollar əlavə vəsait qazanmışıq".

Prezident onu da qeyd edib ki, bu il dünya bazarında neftin qiyməti təqribən 65 dollar səviyyəsindədir: "Bizim büdcəmizdə isə neftin qiyməti 55 dollar götürülmüşdür. Biz neftin qiymətini çox konservativ, yəni aşağı səviyyədə nəzərdə tutduq. Buna baxmayaraq, büdcəmiz rekord həddə çatıb. Ona görə əminəm ki, bu il bizə böyük əlavə xarici valyuta axını olacaq. Ona görə nisbətən yüksək faizlə götürülmüş borcları həm aşağı faizlə götürüləcək borclarla əvəzləmək olar, eyni zamanda, kreditorlarla danışıqlar aparıla bilər ki, biz bu borcları vaxtından əvvəl qaytaraq. Çünki hesab edirəm ki, xarici dövlət borcu nə qədər aşağı olsa, o qədər yaxşıdır. Bir də ki, biz indi xarici kreditləri də çox böyük ehtiyatla alırıq. Ancaq texnoloji layihələrin həyata keçirilməsi üçün kreditlər alına bilər. Yoxsa, əvvəlki illərdə hansısa tikintilərə, yol tikintisinə və bəzi tikintilərə kreditlər götürülürdü. Bunun heç bir əsası yoxdur. Çünki görülən bu işlər dollartutumlu işlər deyil. Ona görə hökumətə kreditlərlə bağlı bir daha tapşırıq verirəm ki, çox ehtiyatla davransınlar".

Prezidentin xarici borclarla bağlı yanaşması çox yaxşı təşəbbüsdür. Çünki burada söhbət əvvəl yüksək faizlə alınmış kreditlərin bağlanmasından gedir. Bütün bunlarla yanaşı, Azərbaycanın bu təşəbbüsünə qarşı xarici kreditorlar hansısa əks arqumentlər ortaya qoya bilərmi?

Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyev buna bir neçə aspektdən yanaşdı: "Prezidentin bu məsələni gündəmə gətirməsi çox vacib məqamdır. Məsələ ondadır ki, beynəlxalq maliyyə mərkəzləri çox vaxt kredit verərkən bunu yüksək faizlə təklif edirlər. İstəyirlər ki, bundan çox qazanc əldə etsinlər. Digər tərəfdən, bəzi hallarda beynəlxalq maliyyə institutları kredit amilindən istifadə edib ölkələrə təzyiq göstərirlər. Hansı ölkə daha çox kredit alırsa, həmin dövləti asılı vəziyyətə salmaq istəyirlər. Belə hallar da var. Bəzi hallarda tövsiyələri ilə ölkələrə müəyyən təsir etmək imkanları əldə edirlər. Ona görə də bir sıra hallarda beynəlxalq maliyyə təşkilatları verdikləri

*"Dövlətimiz beynəlxalq kreditorlar qarşısında istənilən vaxt bu məsələni qaldıra bilər"*

kreditlərin tez geri qaytarılmasında maraqlı olmurlar. Bu amili də danmaq olmaz".

R.Atakişiyev onu da qeyd etdi ki, devalvasiyadan əvvəl xarici borcların dəyəri elə də yüksək deyildi: "Ancaq devalvasiyadan sonra milli valyutanın xarici valyuta qarşısında dəyərinin itməsi nəticəsində borcun yükü artdı. Ona görə də xarici borcların həcminin azaldılması zərurətə çevrildi. 2019-cu ildə Azərbaycanın ehtiyatları 51 milyard dollara gəlib çatdı. Bu da kifayət qədər böyük vəsaitdir. Ona görə də ehtiyatlar imkan verir ki, xarici borclar tez qaytarılsın. Borcların vaxtında və yaxud da vaxtından tez qaytarılması ölkə iqtisadiyyatındakı risqlərin idarə olunması baxımından yaxşıdır. Çünki xarici borclar və onların faizləri həmişə bir risq təşkil edir. Makroiqtisadi stabilliyin idarə olunması baxımından borcları imkan düşdükcə ödəmək və bu risqlərdən sığortalanmaq lazımdır. O ki, qaldı beynəlxalq maliyyə institutlarının buna razı olub-olmamasına, fikrimcə, onlar buna qarşı əks arqument qoya bilməzlər. Çünki Azərbaycanın hüququ var ki, vaxtından tez borcu qaytarsın. O üzdən, dövlətimiz beynəlxalq kreditorlar qarşısında istənilən vaxt bu məsələni qaldıra bilər".

***Vidadi ORDAHALLI***

# Yol Polisi sistemində əsaslı kadr dəyişiklikləri nazirin ümumən polisin reytinqinə işləyən mühüm islahat layihəsi kimi...

**Hüquq-mühafizə sistemi müstəqil dövlətin ən mühüm təsisatlarından biridir. Dövlətin mühafizəsi, vətəndaşların hüquq və azadlıqlarının təminatı, hüquqi cəmiyyət quruculuğu məsələləri bu sistemin inkişafı ilə birbaşa bağlıdır.**

## *"Bu da cəmiyyətdə polisin imicini yüksəldib"*

## ***Şəmsəddin Əliyev:*** *"Son zamanlar DYP sistemində həyata keçirilən islahatlar ictimai rəyin sağlamlaşmasına xidmət edir"*

Son illər Azərbaycanda bir sıra sahələrdə islahatlar keçirilir. Bu islahatlar çoxşaxəli və sistemli xarakterlidir. Bir çox qurumun timsalında sözügedən dəyişikliklər özünü göstərir.

O da məlumdur ki, Yol Polisi hər zaman gündəmdə olan bir sahə olub. Cəmiyyətin ən çox danışdığı, medianın daha çox yazdığı sahələrdən biri də məhz Yol Polisidir. Bu sahədə islahatların aparılması ilə bağlı cəmiyyətdə gözləntilər var idi. Bu gözləntilər general-polkovnik Vilayət Eyvazov Daxili İşlər naziri təyin edildikdən sonra reallaşmağa başladı. Fakt ondan ibarətdir ki, yeni nazir bu sahədə xeyli dəyişikliyə imza atdı. İlk növbədə, Baş Dövlət Yol Polisi İdarəsində dəyişikliklər edildi. Ardınca Yol Polisinin geyimi, istirahət və iş rejimi dəyişdi. Sürücü-polis münasibətlərinə xələl gətirən hərəkətlərə qarşı çox sərt mübarizə başladı. Buna görə onlarla Yol Polisi əməkdaşı işdən və ya daxili işlər orqanlarından kənarlaşdırıldı. Bir neçə rayonda DYP rəisi dəyişdirildi, gənc kadlar irəli çəkildi.

Aparılan islahatlar nəticəsində 20 Yanvar dairəsi, "Koroğlu" metrostansiyasının ətrafı, daha çox sıxlıq müşahidə olunan küçələr, yollar, yolayrıcları, təhlükəli piyada keçidləri nəzarətə götürülüb. Nəticədə hərəkətin təhlükəsizliyi təmin edilib. Yəni aparılan islahatlar artıq müsbət nəticələrini göstərməkdədir. Bütün bunlar isə vətəndaş məmnunluğunun artırılmasına, yol qəzalarının sayının azalmasına, xidmətin daha da yüksəldilməsinə, cəmiyyətdə polisin nüfuzunun artırılmasına yönəlib.

Nəzərə almaq lazımdır ki, DYP sistemi insanların böyük hissəsinin ünsiyyətdə olduğu sahədir.

DYP haqqında cəmiyyətin təsəvvürləri, ümumən, polisə ictimai münasibətin formalaşmasına təsir göstərir. Müşahidələr göstərir ki, Daxili İşlər naziri Vilayət Eyvazovun DYP sistemində apardığı islahatlar, ümumilikdə, cəmiyyətdə polisin imicinin yüksəlməsinə öz təsirini göstərir.



Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbə"lə bölüşən "Polisə Dəstək" İctimai Birliyinin rəhbəri Şəmsəddin Əliyevin sözlərinə görə, DYP sistemində aparılan islahatlar cəmiyyətdə böyük maraqla izlənir: "Əvvəla Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar dövlət qurumlarına olan etimadı artırır. Bütün bunlar müsbət mənada DİN-ə də təsirsiz ötüşmür. Vilayət Eyvazov nazir təyin olunandan sonra uğurla islahatlara start verdi. Bunun nəticəsində əhalinin polisə olan etimadı yüksələn xətlə inkişaf edir. Bu həm də cinayətkarlıqla mübarizədə, vətəndaşların təhlükəsizliyinin təmin olunmasında və asayişin qorunmasında da özünü göstərir.

**Nəzərə almaq lazımdır ki, bayır xidmətində DYP əhali ilə daha çox təmasda olan bir qurumdur. Bütövlükdə, Yol Polisi haqqında ictimai fikir birmənalı deyil. Ancaq son zamanlar DYP sistemində həyata keçirilən islahatlar ictimai rəyin sağlamlaşmasına xidmət edir. Bu da öz bəhrəsini verir. Nəticədə bu sahədə aparılan islahatlar cəmiyyətdə polisin imicini yüksəldib. Bütün bunları görməmək mümkün deyil".**

***Vidadi ORDAHALLI***

# Seçkiyə görə öz dövlətinə pislik haqda çağırış edən siyasətçi - İlqar Məmmədov...

**REAL Partiyasının rəhbəri İlqar Məmmədovun deputatlığa namizədliyi qeydiyyata alınmayıb. Buna səbəb kimi qanunun tələbləri göstərilib. Çünki İ.Məmmədovla bağlı məhkumluğun ödənilməməsi problemi qalmaqdadır. Əlaqədar qurumların qanuna əsaslanmış bu qərarına İlqar Məmmədov qəribə etiraz metodu seçib və ölkənin Avropa Şurasından çıxarılmasını tələb etməyə başlayıb.**



İctimaiyyətin reaksiyası gözlənilən oldu - sosial şəbəkə istifadəçiləri İ.Məmmədova Azərbaycana "hücum" üçün istənilən bir bəhanə axtaran Qərbdəki müəyyən dairələrin əlinə çalışanı kimi şübhəli reputasiyasını xatırladıblar. Həmin şərhlərdə ziddiyyətin izahı belə verilir ki, əvvəllər Avropaya inteqrasiyanı müdafiə edən Məmmədov indi ölkəni Avropadan uzaqlaşdırmaqda israr edir. Avropa Şurasındakı bəzi qüvvələr, öz növbəsində, İ.Məmmədovun seçkilərdə iştirak etməməsini 7 il müddətinə həbs olunması ilə əlaqələndirməsinə dair fikirlərindən məmnuniyyətlə yararlanmağa can atırlar. Avropapərəst İ.Məmmədovun öz ölkəsini Avropa Şurasından çıxarmaq tələbinə necə yanaşmaq olar?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov qəzetimizə açıqlamasında İlqar Məmmədovun bu addımını təqdir etmədiyini bildirdi: "Bilirsiniz ki, Qərbin müəyyən dairələri heç də bütün seçkilərlə bağlı obyektiv rəylər vermirlər. Xüsusilə də belə həssas məqamlarda onlar təzyiqi gücləndirirlər. İ.Məmədovun belə yolu seçməsi onlar üçün göydəndüşmə oldu. REAL sədrinin seçkilərə buraxılmamasının səbəbi hüquqla bağlı olan məsələdir. Yəni şəxs ağır cinayətə görə məhkum edilib. Onun azadlığa çıxandan sonra üzərində məhkumluğu qalır. Məhkumluğun ödənilməsi üçün cinayətin növünə görə müddətlər verilir. Ağır cinayətə görə bu müddət 6 ildir. İ.Məmmədov bu müddəti başa vurmayıb.

Ancaq məhkumluğun vaxtından əvvəl də götürülməsi mümkündür. Bunu da məhkəmə qaydasında edirlər.

Yəni bununla bağlı məhkəməyə müraciət edilməlidir. İ.Məmmədov bunu da etməyib. Partiya sədrinin məhkumluğu vaxtından əvvəl də məhkəmə qaydasında götürülməyibsə, deməli, onun seçkilərdə namizəd kimi iştirakı qanunla qadağan edilir.

**İ.Məmmədovun siyasi oriyentasiyası Qərbə doğrudur, hətta daha ifratdır. O bu tələbi ilə elə öz oriyentasiyasına qarşı çıxmış olur. Bir də bu addım hakimiyyətə qarşı yox, dövlətə qarşı atılır. Siyasətçi müxalif olsa da, belə etməməlidir".**

***Məhəmmədəli QƏRİBLİ***

**"Son vaxtlar siz də bunu görürsünüz, Ermənistanın Baş naziri öz ölkəsinin dırnaqarası uğurları haqqında danışarkən Ermənistanı Azərbaycanla müqayisə edir. Onun gəldiyi qənaətə görə, Ermənistan Azərbaycanı bir çox parametrlər üzrə qabaqlayır.**



# Prezident Əliyevin Azərbaycan və Ermənistan arasında apardığı müqayisə ölkəmizin beynəlxalq mövqeyini daha da gücləndirəcək

***Məhəmməd Əsədullazadə:** "Hesab edirəm ki, bütün bunlar beynəlxalq müstəvidə ölkəmizin xeyrinə işləyəcək"*

Bəri başdan bildirirəm və bunu heç sübut etməyə ehtiyac yoxdur ki, belə bir fərziyyənin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır".

Bunu yanvarın 13-də Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə yekun nitqində deyib. Ölkə başçısı Azərbaycanla Ermənistanı müqayisə edərək, əksər parametrlər üzrə bizim öndə olduğumuzu göstərdi: "Bunu təsdiqləmək üçün, sadəcə olaraq, bir neçə hadisəni və bir neçə rəqəmi səsləndirmək istərdim. Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib. 2011-ci ildə bizdən əvvəl Ermənistan da öz namizədliyini vermişdi. Ancaq biz namizədliyi verəndən sonra onlar götür-qoy etdilər və gördülər ki, bizimlə rəqabətdə onlar 100 faiz uduzacaqlar, çox sakitcə, qorxaqcasına öz namizədliyini geri götürdülər".

Prezidentin sözlərinə görə, 2016-cı ildə Ermənistan dinc Azərbaycan əhalisinə qarşı hərbi təxribat törədib və bu təxribat nəticəsində bir neçə dinc vətəndaş həlak olub: "Onların arasında uşaqlar da olub. Azərbaycan buna cavab olaraq uğurlu əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini, minlərlə hektar torpağı işğalçılardan azad etdi və o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu bizim hərbi qələbəmiz idi. Növbəti hərbi qələbə 2018-ci ildə təmin edilmişdir".

Bununla belə, dövlət başçısı qeyd edib ki, dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci, Ermənistan isə 96-cı yerdədir. Hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir.

Prezident onu da qeyd edib ki, Ermənistan iqtisadi, sosial, idman və digər parametrlərə görə də Azərbaycana uduzur. O bununla bağlı konkret faktlar və rəqəmlər səsləndirib.

*"Bu həm də Azərbaycanın işğalçı ölkə üzərində psixoloji qələbəsidir"*

Bütövlükdə, Prezident İlham Əliyevin sözügedən müqayisəsi Azərbaycana nə verdi?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, bu, Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirəcək: "Cənubi Qafqazda Azərbaycan və Ermənistan arasında bütün sahələrdə ciddi fərqlər var. Azərbaycan iqtisadi və hərbi imkanlarına görə Ermənistandan qat-qat üstündür. Prezident İlham Əliyev öz çıxışında sözügedən müqayisəni apararkən real faktları sadaladı. Bu onu göstərir ki, Azərbaycan regionda öz inkişaf potensialına görə lider ölkədir. Hesab edirəm ki, bütün bunlar beynəlxalq müstəvidə Azərbaycanın xeyrinə işləyəcək. Ermənistanın Baş naziri Nikol Paşinyan da iqtisadi vəziyyətə görə ölkəsinin geridə olduğunun fərqindədir. Lakin bunu açıq etiraf etməyə cəsarəti çatmır. Bu onu göstərir ki, Azərbaycan daim öz iqtisadi və digər proqramları ilə ölkənin potensialını gücləndirir. Nəticədə regionda balans Azərbaycanın lehinə işləyir. Dövlət başçısının Ermənistan barədə dedikləri göstərir ki, bu işğalçı ölkə ciddi şəkildə iqtisadi bataqlığın içindədir.

Çıxış yolu işğalçı mahiyyətindən əl çəkdikdən sonra mümkündür. Bu gün Ermənistan bütün parametrlərə görə Azərbaycandan geridir. Demoqrafik fərq, hərbi imkanlar və iqtisadi göstərici müqayisəyə gəlməz dərəcədədir. Bu həm də Azərbaycanın işğalçı ölkə üzərində psixoloji qələbəsidir".

***Vidadi ORDAHALLI***

**"Banklara 2 milyard manat resurs verilib və yenə də kreditləşmədə istehlak kreditləri üstünlük təşkil edir. Bu da çox təhlükəli tendensiya ola bilər. Ona görə biz elə etməliyik ki, bank sektoru daha çox real sektoru dəstəkləsin. Ona görə biznes kreditlərinin verilməsində baxın, hansı mexanizm olmalıdır ki, banklar da bunda maraqlı olsunlar.**



# Prezident bankların kredit özbaşınalığına son qoyulması üçün qəti tapşırıq verdi

***Əli Əlirzayev:** "Bankların real sektora marağının artması üçün aidiyyəti qurumlar daha fəal olmalıdırlar"*

Həm də ki, Mərkəzi Bank da buna nəzarət etsin. Yoxsa, biz bunu başlı-başına buraxa bilmərik".

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı deyib. Prezident onu da qeyd edib ki, bu il onların fəaliyyətinə, kreditlərin verilməsinə çox güclü nəzarət olmalıdır. O cümlədən, şübhəli kreditlərin verilməsi ilə bağlı mexanizm olmalıdır ki, biz artıq hadisə baş verəndən sonra yox, bəri başdan bunun qarşısını ala bilək: "Bank sektorunun məsuliyyəti də artıbdır, çünki biz bütün əmanətlərin sığortalanmasını davam etdirmişik. Bu da dünya miqyasında nadir hadisələrdən biridir. Biz bunu bir neçə il bundan əvvəl ona görə etdik ki, etimadı artıraq. Hazırda bank sektoruna etimad hesab edirəm ki, yüksək səviyyədədir. Manatın məzənnəsi 3 ildən çoxdur ki, sabitdir, iqtisadiyyat möhkəmlənir, tədiyyə balansının saldosu 6 milyard dollardır. Yəni heç bir təhlükə yoxdur. Ona görə əmanətlərin dövlət tərəfindən tam sığortalanması çox böyük addımdır və bu, bank sektorunun məsuliyyətini artırır. Nəzarət elə olmalıdır ki, sürpriz olmasın və Mərkəzi Banka verilmiş yeni səlahiyyətlər hesab edirəm ki, bu məsələnin həllinə köməklik göstərə bilər".

Maraqlıdır, bankların fəaliyyətinə, kreditlərin verilməsinə necə nəzarət olunacaq?

İqtisadçı-ekspert Əli Əlirzayev qeyd etdi ki, son dövrlər dövlət tərəfindən həyata keçirilən tədbirlərin bir hissəsi ona yönəlib ki, banklar daha çox özəl sektor, real sektorla işləsinlər: "Yəni banklar sahibkarlara vəsait versinlər, daha çox qeyri-neft sektoruna investisiya yatırsınlar. Son dövrlər faizlərin aşağı salınması ilə də bağlı banklara təsir göstərilir. Banklar sahibkarlıq subyektlərinə müəyyən qədər vəsait versələr də, daha çox yüksək faizlə kredit verməkdə maraqlıdırlar. Bunun üçün ən yaxşı bazar sırf istehlak kreditləridir".

*"Banklara lazımi qədər kredit ayrılmalıdır ki..."*

Onun sözlərinə görə, son dövrlər istehlak kreditlərinin həcmi ümumi iqtisadiyyata qoyulan kreditlərin həcmi içərisində 40 faizi ötmək üzrədir: "Kənd təsərrüfatına, sənayeyə qoyulan kreditlər müvafiq olaraq 3-5 faiz və 12 faiz arasında dəyişir. Bu da onu göstərir ki, bankların sahibkarlıq subyektlərinə marağı azdır. Banklar daha çox vəsait əldə etmək üçün istehlak kreditləşməsinə yönəlirlər. Burada, ilk növbədə, maliyyə mənbələrinə çıxışı asanlaşdırmaq lazımdır. Bunun üçün də maliyyə alətlərinin sayı çoxalmalıdır. Maliyyə alətlərinin, maliyyə mənbələrinin sayı nə qədər çox olsa, banklar rəqabətin təsiri ilə faizləri aşağı salacaq və real sektorla işləyəcəklər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, bankların real sektora marağının artması üçün aidiyyəti qurumlar daha fəal olmalıdırlar: "Bununla yanaşı, qanunvericiliyə dəyişiklik olmalıdır. Prezident hələ 2004-cü ildə Bank Məcəlləsinin hazırlanması barədə sərəncam verdi. 10 il ərzində bu istiqamətdə addım atılmadığından, 2014-cü ildə Prezident növbəti dəfə sərəncam verdi.

**Daha 5 il keçsə də, hələ hazırlanmayıb. Bu da onu göstərir ki, bank qanunvericiliyi səviyyəsi bərbad vəziyyətdədir. Bunların nəticəsi olaraq banklara düzgün nəzarət sistemi də qurulmalıdır. Habelə banklara lazımi qədər kredit ayrılmalıdır ki, real sektora maraq göstərilmədiyindən yaşanan problemlər də, nəhayət, öz həllini tapsın".**

***Günel CƏLİLOVA***

**"Uçot dərəcəsi düşdükdə artıq özəl banklar tərəfindən verilən kreditlərin də faiz dərəcəsi güzəştli kreditlərin səviyyəsinə yaxınlaşacaqdır. Ona görə burada uzlaşma olmalıdır". Bunu Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə deyib.**

# Uçot dərəcəsi düşürsə, kredit faizləri niyə düşmür - əslində, Prezidentin məntiqi sualı Elman Rüstəmovadır...

## *Fuad İbrahimov: "Mərkəzi Bankın üzərinə bununla bağlı böyük məsuliyyət düşür"*




Dövlət başçısı Mərkəzi Bankın sədri Elman Rüstəmova bununla bağlı tapşırıq verib: "İndi siz deyirsiniz ki, banklara 2 milyard manat resurs verilib və yenə də kreditləşmədə istehlak kreditləri üstünlük təşkil edir. Bu da çox təhlükəli tendensiya ola bilər. Ona görə biz elə etməliyik ki, bank sektoru daha çox real sektoru dəstəkləsin. Biznes kreditlərinin verilməsində baxın, hansı mexanizm olmalıdır ki, banklar da bunda maraqlı olsunlar. Həm də ki, Mərkəzi Bank da buna nəzarət etsin. Yoxsa, biz bunu başlı-başına buraxa bilmərik. Əlbəttə, bəzi banklar üçün istehlak kreditləri daha da asandır, daha əlverişlidir. Ancaq ölkə iqtisadiyyatı üçün biznes kreditləri üstünlük təşkil edir. Ona görə İqtisadiyyat Nazirliyi ilə birlikdə bu məsələləri müzakirə edin.

Uçot dərəcəsi düşdükdə artıq özəl banklar tərəfindən verilən kreditlərin də faiz dərəcəsi güzəştli kreditlərin səviyyəsinə yaxınlaşacaqdır. Ona görə burada uzlaşma olmalıdır. Bank sektoru böyük bir alətdir, yəni iqtisadiyyatın real sektoruna dəstək verməlidir. Bank sektorundan heç bir sürpriz olmamalıdır. Bu il onların fəaliyyətinə, kreditlərin verilməsinə çox güclü nəzarət olmalıdır".

O da məlumdur ki, kreditlərin illik faiz dərəcələrinin yüksək olması məsələsi dövri olaraq zaman-zaman gündəmə gəlir. Hər dəfə sözügedən məsələ gündəmə gəlsə də, banklar buna əməl etmək istəmirlər. Uçot dərəcəsi ilə kredit faizləri arasında bir uyğunsuzluq var. Reallıq ondan ibarətdir ki, banklar, faktiki olaraq, Mərkəzi Bankın bu yöndə atdığı addımları saya salmır. Hansı ki, 2019-cu ildə uçot dərəcəsi 9,75 faizdən 7,5 faizə endirilib. Təkcə 2019-cu ildə MB 8 dəfə uçot dərəcəsini aşağı endirsə də, bu yöndə heç bir irəliləyiş qeydə alınmayıb. Uçot dərəcəsi düşdükcə, kredit faizləri də aşağı düşməlidir. MB buna nəzarəti artırmalıdır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisadçı-ekspert Fuad İbrahimovun

> *"Yoxsa, bu işi yalnız bankların öhdəsinə buraxmaqla faizlərin aşağı düşməsinə nail olmaq çətin məsələdir"*

sözlərinə görə, illərdir uçot dərəcəsi ilə kredit faizləri arasında anormal uyğunsuzluq var: "Uçot dərəcəsi aşağı salınsa da, bu, kredit faizlərinin düşməsinə gətirib çıxarmır. Təsadüfi deyil ki, 2019-cu ilin yekunları ilə bağlı keçirilən müşavirədə Prezident İlham Əliyev bu məsələyə xüsusi diqqət yetirdi. MB sədri Elman Rüstəmov çıxışında bildirdi ki, ötən il uçot dərəcəsini 7,5 faizə salmaq mümkün olub. Nəzəri baxımdan bu göstərici bank kreditləri faizlərinin də aşağı düşməsinə gətirib çıxarmalıdır. Ancaq bu baş vermir. E.Rüstəmov müşavirədə bu yöndə müəyyən ümidlər verdi. Hətta bəzi kreditlərin faizlərinin aşağı düşəcəyinə işarə etdi. Burada söhbət biznes kreditlərindən gedir. İstənilən halda, institusional yanaşma ilə uçot dərəcəsinin aşağı düşməsi baş verirsə, o zaman bankların təklif etdiyi kreditlərin faiz dərəcələri aşağı düşməlidir. Ancaq bu sahədə bizdə hələ ki, real irəliləyiş yoxdur. Düşünürəm ki, 2020-ci ildə bu istiqamətdə hansısa irəliləyiş olacaq. Çünki ən yüksək səviyyədə bu narahatlıq ifadə olundu və o səbəbdən hansısa tədbirlər görülməlidir. Ancaq gərək bu işdə Mərkəzi Bank öz nəzarət imkanlarını artırsın. Çünki bu bankın yetərincə səlahiyyətləri var. Maliyyə Bazarlarına Nəzarət Palatası bu işin öhtəsindən gələ bilmədi. Əvvəlki qurumun fəaliyyətində boşluqlar, nöqsanlar var idi. İndi bu səlahiyyətlərin hamısı MB-dədir. Ona görə də MB-nin üzərinə bununla bağlı böyük məsuliyyət düşür və bank konkret işlər görməklə kredit faizlərinin aşağı düşməsinə səy göstərməlidir. Yoxsa, bu işi yalnız bankların öhdəsinə buraxmaqla faizlərin aşağı düşməsinə nail olmaq çətin məsələdir".

***Vidadi ORDAHALLI***

---

**Yanvarın 13-də Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı bir sıra məsələlərə toxunub. O cümlədən, daşınmaz əmlakın sığortası ilə bağlı geniş fikir bildirib. Prezident İlham Əliyev daşınmaz əmlakın sığortası ilə bağlı hökumətə tapşırıqlar verib, eyni zamanda, bu sahədə əhalinin maarifləndirilməsinin vacibliyini vurğulayıb.**

# "Atəşgah" və "Odlar yurdu" sığorta şirkətləri ev sahiblərinə hədələyici mesajlar göndərməyə başlayıb...

## *Xəyal Məmmədxanlı: "Sığorta şirkətinin vətəndaşa SMS göndərmək və onu cərimələmək kimi səlahiyyəti yoxdur"*



Ancaq sığorta şirkətləri "İcbari sığortalar haqqında" 2011-ci il 24 iyun tarixli, 165-IVQ nömrəli Qanunu əlində bayraq edib, qapı-qapı düşüb, vətəndaşları məcburi sığortaya cəlb etməyə çalışırlar. Bununla yanaşı, mobil operatorlardan "Atəşgah", "Odlar yurdu" sığorta şirkətləri tərəfindən vətəndaşlara aşağıdakı mətndə mesajlar göndərilir:

"AR İnzibati Xətalar Məcəlləsinin 469.1-ci maddəsinə uyğun olaraq, 2020-ci ildən evləri məcburi qaydada sığorta etdirməlisiniz. Gecikənlərə 30 AZN cərimə hesablanacaq. Zəng edin: 1544".

Məlumat üçün bildirək ki, qanunun 35.2. maddəsinə əsasən, hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri və binalarının, mənzillərin, habelə dövlət əmlakının sığortası icbaridir. Dövlət qeydiyyatına alınmış daşınmaz əmlak dedikdə, qarajlar, mağazalar, evlər, mənzillər və sair dövlət qeydiyyatına alınmış ("kupça"sı olan) obyektlər nəzərdə tutulur. "Kupça"sı olmayanlara sığorta məcburi deyil.

Onu da bildirək ki, sığorta şirkətlərinin əmlak sahibini cərimələmək kimi səlahiyyəti yoxdur. Bəzi şirkətlər isə vətəndaşları təhdid edərək bildirirlər ki, mənzili sığorta olunmasa, o cərimələnəcək.

Qeyd edək ki, İcbari Sığorta Bürosunun icraçı direktoru Rəşad Əhmədov da qanunvericiliyə müvafiq dəyişiklik edildikdən sonra mexanizmin tətbiq ediləceyini açıqlayıb. Buna baxmayaraq, sığorta şirkətləri yenə də öz əməllərini davam etdirirlər.

Sığorta sahəsi üzrə ekspert Xəyal Məmmədxanlı bildirdi ki, sığorta şirkətinin vətəndaşa sms göndərmək və onu cərimələmək kimi səlahiyyəti yoxdur: "Daşınmaz əmlakın sığor-

> *"Sığorta şirkətlərinin "sizə filan gündən cərimə yazılacaq" deyərək hədə-qorxu gəlməsi doğru deyil"*

talanması qanun çərçivəsində olmalıdır. Qanundan çıxarışın qapılara qoyulması məcrasından çıxır. Artıq bəzi sığorta şirkətləri "sabahdan sizə cərimə yazılacaq" deyərək, vətəndaşları hədələyərək, narahat edirlər. Bu düzgün deyil. Danılmaz faktdır ki, "İcbari sığortalar haqqında" Qanun 2011-ci ildən qüvvədədir. Sığorta şirkətləri, sadəcə, yaranmış süni ajiotajdan istifadə edirlər. Sığorta şirkətlərinin "sizə filan gündən cərimə yazılacaq" deyərək hədə-qorxu gəlməsi doğru deyil. Ümumiyyətlə, cərimə kəsmək sığorta şirkətlərinin səlahiyyətinə aid olan məsələ deyil".

Həmsöhbətimiz onu da əlavə etdi ki, "İcbari sığortalar haqqında" Qanuna görə, daşınmaz əmlakın sığortası məcburidir: "Sığorta şirkətlərinin binalara qanundan çıxarış vurmasında qeyri-qanuni hal yoxdur. Amma "filan günədək etdirməsəniz, cərimələnəcəksiniz" deyilməsi qeyri-qanunidir. İnzibati Xətalar Məcəlləsinin 469-cu maddəsində sığortalanmamağa görə 30 manat cərimə müəyyən edilib. Problem ondadır ki, cərimə qanunda nəzərdə tutulsa da, indiyədək heç kimə tətbiq edilməyib. Qanunun yazılma mexanizmi yoxdur. Cərimənin yazılması yerli icra hakimiyyəti orqanlarına həvalə edilib. Onlar da bu günədək heç bir vətəndaşla iş aparmayıblar. Yəni qanun var, amma cəriməni tətbiq edən yoxdur. Necə ki, sığorta edilməyən avtomobillər avtomatik olaraq radara düşür, eləcə də elektronlaşma bitəndən sonra sığortalanmayan evləri də elektron şəkildə müəyyən etmək mümkün olacaq. Qapını döyüb, "sığortanız varmı, yoxmu, sizə cərimə yazıram" deyərək kimsə sizi narahat etməyəcək".

***Günel CƏLİLOVA***

# Paşinyanın orduya münasibətindən narazılıq artır - "...o həqiqətən də yalançıdır"

**Azərbaycan və Ermənistan ordularının döyüş qabiliyyəti, maddi-texniki təminatı baxımından aralarında kifayət qədər fərqin olması heç kimə sirr deyil. Beynəlxalq miqyasda da açıq etiraf olunur ki, Dağlıq Qarabağ münaqişəsinin həlli hərbi müstəviyə keçsə, Ermənistan kifayət qədər sərt zərbələr alacaq.**



Əslində, qeyd olunan reallıq Ermənistanda da kifayət qədər aydın sezilir. Bu səbəbdən erməni cəmiyyəti Qarabağ münaqişəsinin yenidən hərbi müstəviyə keçə biləcəyindən çox narahatdır. Digər tərəfdən, erməni cəmiyyətinin narazılına daha bir səbəb, Azərbaycandan fərqli olaraq, Ermənistanda orduya kifayət qədər laqeyd münasibətin olmasıdır. Bunu hərbi qulluqçu Arayik Qazaryanın anası Karine Qazaryan da xüsusi olaraq vurğulayır. Qeyd edək ki, Arayik Qazaryan ötən ilin avqust ayında mövqelərimizə keçib. Karine Qazaryan bu fonda Ermənistanın dövlət strukturlarından narazılıq ifadə edir. Erməni fərarinin anası oğlu haqqında son məlumatı 2019-cu il dekabrın 13-də Qırmızı Xaç vasitəsilə aldığını, lakin Ermənistan Müdafiə Nazirliyi və ya Xarici İşlər Nazirliyinin hər hansı xəbər bildirmədiyini qeyd edib. Xatırladaq ki, bundan öncə Bakı Azərbaycanda həbs olunan Karen Qazaryan və Arayik Qazaryanın Dilqəm Əsgərov və Şahbaz Quliyevlə dəyişdirilməsinə hazır olduğunu bildirib. Ermənistan tərəfi isə Bakının "hamının-hamıya" prinsipi üzrə dəyişdirilməsi təklifindən imtina edib. Qazaryanın anası bildirib: "Biz getsək də, eyni şeydir, heç nə demirlər. Müdafiə Nazirliyindən bizə deyirlər ki, gedin, yenilik olanda zəng edəcəyik, gözləyirik, lakin boş yerə. Arayik məktubunda hamımızın yeni ilini təbrik edirdi. Sağlamlığına gəlincə, deyir ki, zorakılıq izləri yoxdur". Karine Qazaryan həmçinin bildirib ki, erməni xalqından narazıdır: "İki dəfə baş nazirə məktub yazmışam, qəbul etməyib. Ümumiyyətlə hamıdan narazıyam, öz əsgərlərini tez unudurlar".

Karine Qazaryanla eyni fikirdə olanların sayı kifayət qədərdir. Onlar Nikol Paşinyanın orduya laqeyd münasibət bəsləməsindən, baş verənlər barədə həqiqətdən uzaq fikirlər səsləndirməsindən narazılıq edir. Bu arada Ermənistanın baş nazirinin ordu ilə bağlı yeni yalanı da üzə çıxıb. Belə ki, bu günlərdə Nikol Paşinyan "Facebook" səhifəsində Ermənistan ordusunda itkilər baxımından tarixi minimumun qeydə alındığını elan edib: "Ermənistan ordusunda 2019-cu ildəkindən daha az itki olmayıb". Amma Helsinki Vətəndaş Assambleyası - Vanadzor (HCA) ofisi 2018-ci ildə rəsmi mənbələrə, kütləvi informasiya vasitələrinə və bəzi hallarda ölən hərbçilərin yaxınlarının da məlumatlarına əsaslanaraq, 1994-cü ildən bəri Ermənistan silahlı qüvvələrindəki itkilər barədə geniş hesabat dərc edib. Son on ildə Ermənistanda və Qarabağdakı silahlı birləşmələrdə hərbi və qeyri-döyüş itkilərinə dair məlumatlar araşdırıldıqda məlum olur ki, orduda itkilərin sayının ötənilkindən - 49 nəfərdən az qeydə alındığı illər də olub. Belə ki, 2013-cü ildə 31, 2014-cü ildə 45 ölüm faktı qeydə alınıb. Bunu "Faktların yoxlanılması" platforması yazıb. Bundan başqa, hesabata görə, 2000-ci illərin əvvəllərinin statistikası göstərir ki, 2003-2007-ci illərdə görünməmiş aşağı ölüm hadisəsi olub. Məlumatlar "Civilitas" Vəqfinin analitiki Tatul Hakobyan tərəfindən müxtəlif dövlət qurumlarının, həmçinin Helsinki Vətəndaş Assambleyası-Vanadzor ofisinin, Sülh Dialoq Təşkilatının, "Razminfo" xəbər saytının və digərlərinin məlumatları əsasında toplanıb.

Tədqiqata görə, 2003-cü ildə 40, 2004-cü ildə 38, 2005-ci ildə 47, 2006-cı ildə 33 (hərbi prokurorluğa görə 36), 2007-ci ildə 31 (hərbi prokurluqda 50) itki olub. Bütün bunlar onu göstərir ki, Paşinyanın ötən il erməni ordusunda yaşanan itkilərin azlığı ilə bağlı məlumatı həqiqəti əks etdirmir və o, bir daha ictimaiyyətə yalan məlumat verməklə Ermənistan vətəndaşlarını aldadır. Elə bu da Ermənistanda ciddi narazılıq yaradır.

Ermənistanın "Bizi istisna etməyin" ictimai təşkilatının sədri Satik Xlğatyan bu fonda qeyd edir ki, Paşinyan hökuməti, cəbhədə baş verənlərlə yanaşı, dinc dövrdə ölmüş hərbçiləri də görməzdən gəlir: "Hökumət onlara məhəl qoymur. Paşinyan böyük vədlər verdi, müəyyən məsələdən çıxış etdi, amma heç nə olmadı, o həqiqətən də yalançıdır. Rəhbərlər buraya gəlirlər, iki gül qoyurlar və qaçırlar, valideynlərlə də görüşmək istəmirlər. **Belə davam etsə, biz yolu bağlayacağıq və qoymayacağıq ki, buraya gəlsinlər, qoy gəlməsinlər, bizə lazım deyil". Ölmüş erməni hərbi qulluqçuların valideynlərindən biri isə Paşinyan hökumətinin yardım edə biləcəyi halda yardım etmədiyindən şikayətlənib: "Oğlum ölkəsinə kömək edib, lakin onlar bizə yardım etmirlər, görməzdən gəlirlər, məhəl qoymurlar. İstəsələr, kömək edərlər, ancaq istəmirlər. Qoy vicdanları olsun, ölənlərin ailələrinə kömək etsinlər".**

*Tahir TAĞIYEV*

# Ermənilər daha bir yalanın ifşasından rüsvay olacaq - Azərbaycanda ermənifobiya?

**Azərbaycanın işğal edilmiş torpaqlarında yaradılan qondarma qurum "Sumqayıt hadisələri" və "Bakı qətliamı" ilə bağlı gülünc bəyanat yayıb. Bəyanatda Sumqayıt və Bakı şəhərində guya ermənilərə divan tutulduğunu, bu səbəblə də 300-ə qədər erməninin öldüyünü bildirən rejim, 1990-cı ilin 20 Yanvar hadisəsinin də mahiyyətini təhrif edib.**



## *Hatəm Cabbarlı: "Ermənistanda və qondarma qurumun ərazisində, faktiki olaraq, bir nəfər də olsun azərbaycanlı yaşamır"*

Belə ki, bəyanatda bu hadisə Azərbaycan xalqının milli-azadlıq mücadiləsi kimi deyil, sovet ordusu tərəfindən mülki erməniləri xilası kimi təqdim edilib və qeyd olunub ki, Bakıdakı "erməni qətliamı"na guya sovet ordusunun 1990-cı ilin 20 yanvar tarixində şəhərə gəlişi ilə son qoyulub: "Bakıda təşkil edilmiş erməni qırğınlarından 30 il keçdi. 1990-cı il yanvar ayının əvvəllərində Sovet Azərbaycanının paytaxtı Bakıda keçirilən mitinqlərdə "Ermənilərə ölüm", "Yaşasın Sumqayıt qəhrəmanları", "Yaşasın ermənisiz Bakı" şüarları səslənirdi və əsrlər boyu bu şəhərdə yaşayan ermənilərə qarşı nifrət təbliğ olunurdu. Müxalif "Azərbaycan Xalq Cəbhəsi" hərəkatının təşkil etdiyi mitinqlərdən sonra azərbaycanlılar əllərində ermənilərə aid evləri işarə edən xəritələrlə qruplarla hücum edib erməni icmasının son nümayəndələrini, yaşından və cinsindən asılı olmayaraq, öldürürdülər".

Bəyanatda Azərbaycan cəmiyyətində ermənilərə nifrət hissinin artması da qeyd olunub və düşmən tərəf bununla bağlı narahatlığını dilə gətirib. Xüsusilə bildirilir ki, guya ermənilərə qarşı ksenofobiya hazırda da Azərbaycanın dövlət siyasətinin tərkib elementidir.

Məlumdur ki, Ermənistan monoetnik ölkədir. Onların himayəsi altında olan separatçı rejimin isə belə bəyanatla çıxış etməyə hüquqi haqqı yoxdur. Həmin qurumun da nəzarəti altında olan ərazidə bir nəfər də olsun azərbaycanlı yaşamır. Belə olan təqdirdə, qondarma qurum adından yayılan bəyanatda hansı məqsədlər güdülə bilər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, qondarma qurumun adından yayılan bəyanatın mahiyyəti tamamilə şər-böhtan üzərində qurulub: "Bəyanatın mahiyyətindən belə başa düşülür ki, guya Azərbaycan erməni millətinə qarşı ksenofobiya siyasəti yürüdür. Əslində, bəyanatı tərsinə oxumaq lazımdır. Çünki həmin siyasəti ermənilər bizə qarşı həyata keçirib və keçirməkdədirlər. Milli zəmində düşmənçilik elə startını Ermənistan və Dağlıq Qarabağdan götürüb. Nəticə etibarilə 300 minə yaxın azərbaycanlı Ermənistandan, min illərlə yaşadığı öz ata-baba yurdlarından didərgin düşdü. O cümlədən, Dağlıq Qarabağın ərazisində yaşayan azərbaycanlılar da ermənilər tərəfindən öz torpaqlarından qovuldu. Artıq Ermənistan və qondarma qurumun "XİN"i adından bəyanatların verilməsi adət halını alıb. Hər il yanvar ayında bir neçə belə bəyanat verilir. Bunun də başlıca məqsədi öz əməllərini pərdələmək, məsələnin mahiyyəti barədə dünya ictimaiyyətinə yanlış məlumat ötürməkdir. Əslində, Azərbaycan dövləti heç vaxt erməni millətinə qarşı düşmənçilik aparmayıb. Rəsmi məlumatlara görə, Azərbaycanda 30 minə yaxın erməni yaşayır. Ancaq Ermənistanda və qondarma qurumun ərazisində, faktiki olaraq, bir nəfər də olsun azərbaycanlı yaşamır. Bundan təbliğat vasitəsi üçün istifadə edirlərsə, belə vacib məqamı niyə unudurlar? Azərbaycan XİN hər zaman bu məsələnin mahiyyətini obyektiv açan geniş açıqlama verir. Əminəm ki, rəsmi qurumlarımız bu sərsəm bəyanatı cavabsız qoyan deyil".

*Məhəmmədəli QƏRİBLİ*

# Müşavirədən sonrakı ən maraqlı ovqat - sosial yardımları mənimsəyən yeni başçı həbsləri ola bilər...

## Əhməd Qəşəmoğlu: ”...bu, başqalarına da dərs olmalıdır”



*”İşində nöqsanlara, pozuntulara yol verən icra başçılarının da həbs ediləcəyi istisna deyil”*

**Azərbaycanda sosial siyasət sahəsində həyata keçirilən bütün işlər vətəndaş məmnunluğunun təmin edilməsinə, onların sosial rifah halının yüksəldilməsinə xidmət edir. Amma təəssüf ki, bəzi dövlət məmurları sosial-ictimai sahədə baş verən müsbət yönümlü proseslərin qarşısını almağa çalışır, sosial müavinətlərin, maddi yardımların vətəndaşa çatmasına ciddi maneələr törədirlər.**

Bu hərəkətə yol verən bəzi məmurlar, icra orqanları rəhbərləri ifşa edilərək həbs edilib.

Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə bu aktual məsələni bir daha gündəmə gətirib, o bildirib ki, bu kimi cinayətlərə yol verənlər məsuliyyətdən yaxa qurtara bilməyəcəklər: "...İctimai ödənişli iş yerləri ilə bağlı bu təşəbbüs mənim tərəfimdən irəli sürüldü, o vaxt ki, dövlət investisiya xərcləri kəskin şəkildə aşağı düşdü. Bunu da biz məcburiyyət qarşısında etdik. Çünki neftin qiyməti dörd dəfə aşağı düşmüşdü, gəlirlərimiz azalmışdı və büdcəmiz ixtisar edilmişdi, o cümlədən, investisiya proqramı da böyük dərəcədə ixtisara uğradı. İşsizliyin qabağını almaq üçün mənim təşəbbüsümlə on minlərlə ödənişli ictimai iş yeri yaradılmalı idi. Ancaq əfsuslar olsun ki, biz bu proqramın icrasında çox böyük pozuntulara rast gəldik. Xüsusilə yerli icra orqanları tərəfindən vicdansızcasına bu vəsaitin talanması və ödəniş kartlarının yığılması, ondan sonra oradan pulun çəkilməsi, yaxud da öz yaxın adamlarının, bu işlərlə qohumlarının təmin edilməsi, əlbəttə ki, dözülməz faktdır və buna görə artıq bu pozuntulara yol verən şəxslər cəzalandırıldı və bu işlər davam etdiriləcək. Bu, hər kəsə dərs olmalıdır. Amma, eyni zamanda, elə bir mexanizm işlənməlidir ki, bu pozuntulara, ümumiyyətlə, imkan olmasın. Ona görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verildi ki, onlar bu işin koordinasiyasını öz üzərinə götürsünlər və ödənişli ictimai işlərə götürülən vətəndaşlar məhz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən rəsmiləşdirilsin. İndi hazırda keçən il 38 min belə işlə təmin olunan şəxs var" - deyən ölkə başçısı bu çıxışı ilə də bu sahəyə məsul şəxslərə növbəti xəbərdarlığını etdi.

Professor Əhməd Qəşəmoğlu "Bakı-Xəbər"ə bildirdi ki, bu gün Azərbaycanda dövlətin vətəndaşların rifah halının yüksəlməsinə yönəlik siyasət həyata keçirməsi çox böyük nəticə verir. Ə.Qəşəmoğlu bununla belə hesab edir ki, bəzi məmurların, xüsusən də icra hakimiyyəti başçılarının öz vəzifələrinə məsuliyyətsiz yanaşması və vətəndaşa aid vəsaiti talaması, mənimsəməsi olduqca pis nəticə verib. O qeyd etdi ki, bəzi məmurlar ünvanlı sosial yardımların verilməsindən tutmuş, müavinətlərin təyin edilməsinə və digər məsələlərə qədər müdaxilə edərək vicdansızcasına talançılıq ediblər. Mütəxəssisin fikrincə, Prezidentin təşəbbüsü ilə ərsəyə gətirilən sosial-ictimai proqramların icrasında pozuntuları törədən məmurlardır. "Məlum olduğu kimi, bir sıra məmurlar, icra başçıları həm dövlət büdcəsini talamaqda "mahir" olmaqla yanaşı, həm də ictimai-sosial proqramlar üzrə ayrılan vəsaitləri mənimsəyiblər. Son zamanlar açıq şəkildə məlum oldu ki, bəzi icra başçıları, məmurlar vətəndaşlara aid ödəniş kartlarını yığaraq oradan böyük məbləğdə vəsaiti çəkərək mənimsəyiblər. Əlbəttə, bu faktlar onlar tərəfindən vətəndaşın haqqının tapdanması, dövlət vəsaitinin talan edilməsidir. Bu istiqamətdə qanun pozuntularına yol verən icra hakimiyyəti başçıları, onların müavinləri cinayət məsuliyyətinə cəlb olundular, bu, başqalarına da dərs olmalıdır. Hesab edirəm ki, icra orqanlarında çalışan digər şəxslər də həbs edilən insanların yolunu getməməlidirlər, onların taleyindən nəticə çıxarmalıdırlar. Dövlət vəsaitini talayan, vətəndaşın müavinətinə, dövlət tərəfindən ona ayrılan vəsaitə hər hansı yolla göz dikən məmurlarla bağlı hüquqi müstəvidə ölçü götürülməsi müsbət haldır. İşində nöqsanlara, pozuntulara yol verən icra başçılarının da həbs ediləcəyi istisna deyil. Ölkə başçısı da çıxışında belələrinə qarşı barışmaz olduğunu bəyan edib".

Ə.Qəşəmoğlu hesab edir ki, dövlətin hazırladığı sosial-ictimai yönümlü layihələrin icrasını ləngidən, yaxud icrasında müxtəlif pozuntulara yol verən şəxslərin qəlbində xalqa, dövlətə məhəbbət yoxdur, belə insanlar vəzifəyə yalnız gəlir mənbəyi kimi baxırlar. "Dövlət məmurunda vicdan, xalq, vətən sevgisi, humanistlik olmalıdır. Amma hər hansı bir məmurda maddi maraq öz xalqına olan maraqdan üstündürsə, o hər zaman bu cür pozuntulara yol verəcək. Çox təəssüf ki, həbs edilən icra başçılarında da, eləcə də hələ yol verdiyi pozuntuların miqyası tam aşkarlanmamış məmurlarda da xalqa sevgi yoxdur. Onların məqsədi yalnız daha çox var-dövlət əldə etməkdir. İcra orqanlarında çalışan məmurlar Prezidentə kömək etmək əvəzinə, onun irəli sürdüyü proqramların icrasına mane olurlar. Əslində, belə olmamalıdır, onlar Prezidentə kömək etməlidirlər. Çünki onlar Prezidentin yerlərdəki nümayəndələridir. Elə fəaliyyət göstərməlidirlər ki, Prezidentə kömək edə bilsinlər. Bu gün ölkəmizdə yeni abhava, yeni atmosfer formalaşıb. Bu baxımdan da məmurlar Prezidentin xəbərdarlıqlarından nəticə çıxarmalıdırlar. Məmurlar, icra başçıları yerlərdə təşəbbüslərlə çıxış etməlidirlər. Onlar elə mütəxəssislər, iş adamları tapıb prosesə cəlb etməli idilər ki, bu adamlar yeni iş yerləri yaratmaqda maraqlı olardılar. Amma bunlar iş adamlarının fəaliyyətinə mane olublar".

Ə.Qəşəmoğlunun fikrincə, icra başçıları öz fəaliyyətlərində şəffaflığı təmin etmək istəyirlərsə, elmi təminatdan istifadə etməlidirlər. Lakin onların elmi təminatı idarəetməyə yaxın qoymadıqlarını deyən Ə.Qəşəmoğlu bildirdi ki, məmurların bir çoxu elmi yeniliklərdən qorxur. "Amma indiki dövrdə elmi metodlarla yeni texnologiyalar yaratmadan işlək mexanizm qurmaq olmaz. Çünki bütün dünya elmin köməyindən istifadə edərək yeni texnologiyalar qurur. Mən öz tələbələrimə yerlərdə yeni texnologiyaların qurulmasını öyrədirəm.

**Amma mənim öyrətdiyim tələbələr hansısa bir icra hakimiyyətinə getsə, onu işə götürməyəcəklər. Halbuki, icra hakimiyyətləri özləri sosial sahəni, işi bilən, müasir metodlarla yeni texnologiyaların tətbiqini bacaran kadrlar yetişdirməlidirlər. İnandırıram sizi, yerli icra orqanları tərəfindən təşəbbüslər irəli sürülsə, yeni təkliflər edilsə, şəxsən cənab Prezident ona dəstək verər. Amma belə təşəbbüslər yoxdur" - deyə Ə.Qəşəmoğlu qeyd etdi.**

***İradə SARIYEVA***

# 9 il əvvəl Azərbaycanın BMT müstəvisində Ermənistanın "burnunu necə əzdiyi" indi açılır...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə yekun nitqində son vaxtlar Ermənistanın Baş nazirinin öz ölkəsinin dırnaqarası uğurları haqqında danışarkən Ermənistanı Azərbaycanla müqayisə etməsinin həqiqətə uyğun olmadığını bildirib:**

"Onun gəldiyi qənaətə görə, Ermənistan Azərbaycanı bir çox parametrlər üzrə qabaqlayır. Bəri başdan bildirirəm və bunu heç sübut etməyə ehtiyac yoxdur ki, belə bir fərziyyənin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır. Bunu təsdiqləmək üçün, sadəcə olaraq, bir neçə rəqəmi səsləndirmək istərdim".

Prezident qeyd edib ki, Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçiləndə də Ermənistanı qabaqlayıb: "Yəni bu, özlüyündə böyük bir göstəricidir. Birinci növbədə, ona görə ki, biz ilk dəfə bu böyük, şərəfli missiyaya nail olduq və o vaxt müstəqilliyimizin cəmi 20 yaşı tamam olmuşdu. Digər tərəfdən, bu, Azərbaycanın beynəlxalq nüfuzuna bilavasitə dəlalət edən amillərdən biri idi. Çünki dünya birliyinin mütləq əksəriyyəti bizə inandı, bizə etimad göstərdi və bizə öz səsini vermişdi. Bu hadisə ilə bağlı mən əvvəlki dövrlərdə kifayət qədər geniş məlumat vermişdim. Amma bir məsələ həmişə diqqətdən kənarda qalır, bir çoxları bunu bilmir. Həqiqət isə ondan ibarətdir ki, 2011-ci ildə bizdən əvvəl Ermənistan da öz namizədliyini vermişdi. Ancaq biz namizədliyi verəndən sonra onlar götür-qoy etdilər və gördülər ki, bizimlə rəqabətdə onlar 100 faiz uduzacaqlar, çox sakitcə, qorxaqcasına öz namizədliyini geri götürdülər. Çünki bilirdilər ki, BMT-də biz onlara böyük fərqlə qalib gələcəyik və beləliklə, onlar rüsvay olacaqlar. Yəni bu, 9 il bundan əvvəl baş vermiş hadisədir və onu göstərir ki, beynəlxalq müstəvidə Ermənistanın və Azərbaycanın hörməti və çəkisi nə dərəcədə fərqlənir. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz bizim böyük siyasi və diplomatik qələbəmizdir və eyni zamanda, Ermənistan üzərində böyük qələbə idi".

Bizim hətta BMT-də 2011-ci ildə Ermənistanı üstələməyimizi şərtləndirən hansı amillər olub?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanın 2011-ci il oktyabrın 24-də BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə inamlı qələbə qazanmağı gərgin fəaliyyətin nəticəsində olub: "Azərbaycan 2011-ci ildə BMT Baş Məclisinin Prosedur Qaydalarının 142-ci bəndinə görə, 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə Şərqi Avropa dövlətləri qrupundan namizədliyini irəli sürmüşdü. 3 gün davam edən prosesdən sonra,16-cı turda Azərbaycan Sloveniya üzərində şərtsiz üstünlük qazanaraq qələbə üçün tələb olunan 129 səsdən də çox - 155 səs əldə etmişdi. Ölkəmiz 16 turun səsvermədə nəticəsinə görə BMT-yə üzv 193 dövlətdən, Rusiya Federasiyası da daxil, 155-nin səsini qazanmaqla qalib olmuşdu.

Azərbaycan müasir tarixdə Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə kimi tarixə düşüb. İlkin turlarda Azərbaycanın rəqibi öncə Macarıstan, daha sonra isə Sloveniya dövləti oldu. 15-ci turun nəticələrinə görə namizədlərin toplamalı olduğu 129 nümayəndəliyin səsindən Azərbaycan 116 nümayəndəliyin, Sloveniya isə 77 ölkənin səsini topladı.

İlkin turlarda isə Cənubi Qafqaz ölkələrindən Ermənistan da BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə iştirak təşəbbüsünü bildirmiş və hətta bu istiqamətdə müəyyən addımlar da atıb. Lakin Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə iştirakı dəqiqləşən kimi bu təşəbbüsündən vaz keçib və geri çəkilib".

Ekspertin sözlərinə görə, hətta o dövrdə bədnam qonşu dövlətdə daxili auditoriya üçün bu faktın üzərində BMT-də Azərbaycanla rəqabət mövzusunda bir təbliğat da qurulmuşdu: "Öncəliklə onu deyim ki, Ermənistanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə iştirakı ideyası özlüyündə ölü doğulmuş bir ideya idi və ideya olaraq bu təşəbbüsün özü ölkə daxilində müəyyən manipulyasiya və populist təbliğat üçün nəzərdə tutulmuşdu.

Bunun bir neçə səbəbi var - hüquqi, mənəvi, texniki imkanlar və başqa. Birinci səbəb, əlbəttə, BMT Təhlükəsizlik Şurasının Ermənistan haqqında

- Silahlı Qüvvələrinin digər BMT üzvünün torpaqlarını işğal edən;
- Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyə təhlükə yaradan;
- böyük sayda mülki şəxsin yerini dəyişməsinə səbəb olan;
- regionda fövqəladə humanitar vəziyyətin yaranmasına gətirib çıxaran;
- regionda bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət etməyən;



- beynəlxalq sərhədlərin toxunulmazlığını pozan və ərazi əldə etmək məqsədilə gücdən istifadəyə yol verən bir dövlət kimi 4 qətnamə çıxarmasıdır. Yəni BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olacaq bir ölkə haqqında təcavüzkar kimi 4 qətnamə çıxarılması BMT TŞ prinsipləri anlamından məqbul deyildi.

Texniki imkanlar anlamında isə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi təsdiqlənmiş bir ölkə təşkilatın iclas və tədbirləri üçün yüksək maddi-texniki resurslara malik olmalıdır.

Humanitar yardımlar üçün bütün mümkün layihə və proqramlara üz tutmuş bir ölkənin belə bir tədbirləri keçirməsi çoxlu sual doğurdu.

Yəni, bir tərəfdən, ölkənin ehtiyacları üçün maliyyə dilənir, digər tərəfdən, bu maliyyəni ehtiyaclar üçün deyil, kənar məqsədlər üçün istifadə olunması məntiqə uyğunsuzluğu göz önündə idi.

3-cü ən əsas səbəb isə, əlbəttə, maddi-texniki resurslara və beynəlxalq tədbirlərin güvənilən və yüksək səviyyəli ev sahibi reputasiyasına malik Azərbaycana böyük hesabla uduzmasını göz önünə alaraq Ermənistan bu təşəbbüsünü geri çəkdi".

***Məhəmmədəli QƏRİBLİ***

**Dünya enerji bazarlarında baş verənlər neftin qiymətinin hələ müəyyən müddət nəzərdə tutulduğundan yüksək həddə qalacağını göstərir. Hətta bir sıra ekspertlər neft qiymətində qarşıdakı dövrdə əhəmiyyətli dərəcədə artım olmasını da istisna etmir.**

# ABŞ - İran gərginliyi nefti 100 dollara qədər bahalaşdıra bilər

## *Azərbaycan neft satışından daha çox gəlir əldə edəcək*

Bunun ümdə səbəbi geosiyasi qarşıdurmaların artması, xüsusən də ABŞ və İran arasında ziddiyyətlərin davam etməsidir.

Hazırda yaşananlar hasilatçı ölkələrin, o cümlədən də Azərbaycanın neft satışından nəzərdə tutulduğundan daha çox vəsait əldə etməsi ilə müşayiət olunur, çünki neftin faktiki satış qiyməti büdcədə nəzərdə tutulduğundan daha yüksəkdir. Xatırladaq ki, cari ildə neftin satış qiyməti büdcə üçün 55 dollardan müəyyən olunub. Amma Azərbaycan nefti dünya bazarlarında hazırda 68 dollara satılır. Qeyd edək ki, bu məsələyə Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə də toxunub:"Bu il neftin qiyməti təqribən 65 dollar səviyyəsindədir. Bizim büdcəmizdə isə neftin qiyməti 55 dollar götürülüb. Biz neftin qiymətini çox konservativ, yəni aşağı səviyyədə nəzərdə tutduq. Buna baxmayaraq, büdcəmiz rekord həddə çatıb. Ona görə əminəm ki, bu il bizə böyük əlavə xarici valyuta axını olacaq".

Ekspertlər də vurğulayır ki, neftin satış qiyməti Azərbaycana əlavə valyuta axınına təkan verəcək. Çünki neftin yüksək qiymət həddində qalması proqnozlaşdırılır. İran və ABŞ arasındakı gərginlik artdıqca, yenilənmiş sanksiyalardan tutmuş təxribat təhlükəsi və birbaşa müharibə təhdidinə qədər proseslər neftin qiymətinə birbaşa təsir edir. Qeyd edək ki, neftin qiymətinin bahalaşmasında belə hadisələr mühüm rol oynayıb. Xüsusən də 1990-cı ildə məlum körfəz müharibəsindən sonra qiymətdə uzunmüddətli artım baş verdi. Bu vəziyyət bu gün də dəyişməyib. Belə ki, "Brent" markalı xam neftin qiyməti İran İslam İnqilabı Keşikçiləri Korpusunun generalı Qasım Süleymaninin ABŞ tərəfindən öldürülməsindən sonra kəskin artdı. Düzdür, "qara qızıl"ın qiymətindəki sıçrayış indi bir qədər səngiyib. Analitiklərin fikrincə, neftin qiymətinin əvvəlki səviyyələrə qayıtması təəccüblü deyil. Artım tempinin qısamüddətli olacağı məlum idi və qiymət artımından qısa müddət sonra satışlar artdı. Neftin qiymətinin əvvəlki səviyyəyə geri qayıtmasına bunun neft tədarükünə əhəmiyyətli təsirinin olmaması səbəb oldu. Lakin ABŞ-İran gərginliyi artdıqca tədarükdə çatışmazlıqların olacağı ilə bağlı narahatlıqlar da var. Ən böyük narahatlıq isə bölgədəki hər hansı bir qarşıdurma nəticəsində İranın dünyanın ən mühüm neft limanı olan Hörmüz boğazını bağlaması ilə bağlıdır. Körfəz və Asiya bazarlarını birləşdirən, hər gün dünyanın xam neftinin təxminən 40 faizinin keçdiyi boğaz Oman və İranla həmsərhəddir. ABŞ tərəfinin verdiyi açıqlamalar isə bu boğaz ətrafında artıq gərgin bir vəziyyətin yaranacağını indidən deməyə əsas verir. ABŞ dövlət katibi Maykl Pompeo bildirir ki, Vaşinqton İranın neft ixracını tamamilə bloklamaq üçün maksimum səylər göstərəcək: "Biz İrandan neft ixracını 80 faiz bloklaya bilmişik və qalan 20 faizlə də məşğul olmaq niyyətimiz qətidir". Xatırladaq ki, ABŞ İrandan neft ixracına 2018-ci ilin payızından etibarən sanksiya tətbiq edib. Birləşmiş Ştatların sanksiyalarının təsiri altına düşməmək üçün İran neftinin müştəriləri olan ölkələr və şirkətlər Tehranla bu sahədə ticarəti dayandırmalı olub. Hazırda İran öz neftini ancaq qeyri-leqal sxemlərlə, məhdud həcmdə ixrac edə bilir. Amma bu da dayanacağı təqdirdə İran Hörmüz boğazından neft ixracını tam dayanadıracını bildirib. Hətta iş o yerə çatıb ki, artıq Səudiyyə Ərəbistanı və Braziliyanın neft şirkətlərinin tankerləri Hörmüz boğazından keçməkdən imtina edib. Səudiyyə Ərəbistanının "Bahri" və Braziliyanın "Petrobras" neft şirkətləri təhlükəni nəzərə alaraq boğazdan istifadə etməklə neft daşımayacaqlarını bəyan ediblər. Həmçinin "Bahri" şirkəti müştərilərinə tələsməməyi məsləhət görüb. Boğazda ABŞ və İranın hərbi gəmilərinin sayının artması da vəziyyətin heç də ürəkaçan olmadığını göstərir. Bu fakt dünya bazarında neftin qiymətinə təsirsiz ötüşməyəcək. İslam İnqilabi Keşikçiləri Korpusunun Kirman əyalətindəki komandiri Qulaməli Əbuhəmzə belə bir vaxtda bildirib ki, Qasım Süleymaninin öldürülməsinə cavab olaraq İran əli çatdığı hər yerdə amerikalıları cəzalandıracaq. O, Hörmüzdə ABŞ gəmilərinə hücum ehtimalı olduğunu bildirib: "Hörmüz boğazı Qərb üçün əhəmiyyətli nöqtədir və çox sayda ABŞ hərbi gəmisi oradan keçir. Bölgədəki ABŞ hədəfləri uzun müddətdən bəridir İran tərəfindən təsbit edilib". İranın "Hatəmül Ənbiya" Mərkəz Qərargahının komandanı Qulam Əli Rəşid də bu xüsusda sərt təhdidlər səsləndirib: "ABŞ regionda yanlış addımlar atmamalıdır. Bu meydandan ABŞ-a və İran düşmənlərinə xəbərdarlıq edirik. ABŞ hökuməti regionda, xüsusilə Hörmüz körfəzində əsgərlərinin həyatı üçün məsuliyyətli davranmalıdır". Bütün bunlar artıq indidən neft bazaralarına təsir edərək qiymətləri artırır. Ekspertlər bildirir ki, Hörmüz boğazında vəziyyət gərginləşsə, neftin qiyməti qısa zaman ərzində 100 dollarlıq həddə də çata bilər.




***Tahir TAĞIYEV***

# Regional təcrid təcavüzkar Ermənistanın çöküşünü sürətləndirir

**İşğal siyasətini davam etdirməsi, əvvəlki kimi, Ermənistan çox baha başa gəlməkdə, bu ölkəni regionda həyata keçirilən transmilli layihələrdən kənarda saxlamaqdadır. Təbii ki, bu hal öz növbəsində Ermənistanın sosial-iqtisadi durumunu daha da pisləşdirməkdə, onu inkişafdan geri saxlamaqdadır.**

Qeyd edək ki, sözügedən məsələyə Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə də xüsusi toxunub.

Dövlət başçısı çıxışında Azərbaycanın dünya əhəmiyyətli nəhəng layihələr icra etdiyindən söz açıb: "Bu layihələr arasında Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tiflis-Ceyhan neft kəmərləri, Bakı-Tiflis-Ərzurum, TANAP qaz kəmərləri var. Cənub Qaz Dəhlizi bu il istismara veriləcək. Bakı-Tiflis-Qars dəmir yolu istifadəyə verilib və bu yol vasitəsilə yükdaşımaların həcmi ildən-ilə artır. Bakı-Tiflis-Qars Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsidir. Biz bu layihəni qonşu ölkələrlə - Türkiyə və Gürcüstanla uğurla icra etdik. Digər qonşularımızla - Rusiya və İranla Şimal-Cənub nəqliyyat dəhlizi üzrə işlər uğurla gedir və demək olar ki, bu dəhliz fəaliyyət göstərir. Sadəcə olaraq, bu dəhlizi daha da səmərəli etmək üçün növbəti addımlar atılır". İlham Əliyev çıxışında qeyd edib ki, bu nəhəng enerji və nəqliyyat layihələri Ermənistandan yan keçib: "Bu bizim qonşularımızdır, eyni zamanda, Rusiya istisna olmaqla, Ermənistanın da qonşularıdır. Yəni biz qonşularla dostluq, əməkdaşlıq, səmimiyyət əsasında münasibətləri qurmuşuq və məhz buna görə bu layihələrə nail olmuşuq. Ermənistan isə əsrlər boyu qonşulara xor gözlə baxır, qonşulardan nəsə qoparmaq istəyir, onların torpağına iddia edir, tarixi saxtalaşdırır, tarixi abidələri saxtalaşdırır və özününküləşdirməyə cəhd edir. Fərq bundan ibarətdir. Ermənistanı bu enerji və nəqliyyat layihələrindən biz təcrid etmişik və bunu heç vaxt gizlətməmişik. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz Ermənistanı regionda bizim iştirakımızla reallaşdırılan bütün önəmli layihələrdən təcrid edəcəyik və biz buna nail olduq, həmişə olduğu kimi sözümüzə sadiq qaldıq".



Prezident çıxışında Ermənistanı siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanı adlandırıb: "Torpaqlarımızdan çıxmayana qədər bu vəziyyət belə də qalacaq. Beləliklə, Ermənistan rəhbərliyi növbəti dəfə saxta məlumat əsasında Ermənistanı Azərbaycanla müqayisə etmək istəsə, yaxşı fikirləşsin. Çünki idman dili ilə desək, Azərbaycan ali liqada, Ermənistan isə üçüncü liqadadır və getdikcə bu fərq daha da böyüyəcək. Bilirsiniz, əvvəllər mən Azərbaycanı heç bir ölkə ilə heç vaxt müqayisə etməmişəm. Biz işimizi kimisə qabaqlamaq üçün görmürük. Biz işimizi Azərbaycan xalqı, dövləti naminə görürük, sadəcə olaraq, Ermənistanın növbəti yalanlarını ifşa etmək üçün məcbur olub, bu müqayisəli təhlili sizə və Azərbaycan xalqına təqdim etdim. Özü də mənim gətirdiyim rəqəmlər həqiqəti əks etdirir, Ermənistanın gətirdiyi rəqəmlər növbəti əfsanədir, növbəti yalandır".

Həqiqətən də real vəziyyət Ermənistanın təcrid nəticəsində getdikcə daha acınacaqlı vəziyyətə düşdüyünü üzə çıxarır. Digər tərəfdən, proseslər həm də onu göstərir ki, işğal siyasətinə son qoymayana qədər Ermənistanın hansısa regional layihədə iştirakı mümkün deyil. Yaranmış vəziyyətdən çıxış yolu tapmaq üçün İrəvanın gedişləri isə heç bir nəticə vermir. Əksinə, İrəvanın bir vaxtlar həyata keçirmək istədiyi layihələr də bir-bir sıradan çıxır və bu, Azərbaycanın gedişləri sayəsində baş tutur. Hesab edilir ki, Ermənistan işğal siyasətindən əl çəkməyənə qədər belə ağır vəziyyətdə qalmaqda davam edəcək.

Əslində, bu vəziyyət Ermənistanın özündə kifayət qədər narahatlıq doğurmaqla yanaşı, beynəlxalq müstəvidə də aydın sezilir. Buna sübut kimi İranla nəzərdə tutulan layihələr göstərilir: "İrəvanda şokdan ayıla bilmirlər: Tehran hələ 12 il qabaq Ermənistana dəmir yolu magistralı çəkməyə söz vermişdi, amma hələ də çəkməyib. Əvəzində "Şimal-Cənub" nəqliyyat dəhlizi çərçivəsində Qəzvin-Rəşt-Astara dəmiryolunun çəkilişi haqda Bakı ilə anlaşıb. Bakı və Tehran danışıqların gedişində Qəzvin-Rəşt-Astara dəmir yolunun inşası vasitəsilə Azərbaycanın cənubunu İranın şimalı ilə birləşdirməyi qət edib. Bu günlərdə isə İrəvanı narahat edən daha bir hadisə baş verib. Məlum olub ki, "Şimal-Cənub" nəqliyyat dəhlizinin mühüm dayaq məntəqəsi olan İranın Çabahar limanı Hindistanın idarəçiliyinə veriləcək. Xatırladaq ki, bu liman "Şimal-Cənub" nəqliyyat dəhlizinin formalaşmasında əhəmiyyətli rola malikdir. Hindistan Çabahar limanı vasitəsilə Əfqanıstan, Orta Asiya və Şərqi Avropa ölkələri ilə ixrac-idxal əməliyyatlarını həyata keçirmək niyyətindədir. Yüklər Hindistanın Mumbai limanından gəmilərlə İranın Çabahar limanına gətiriləcək, buradan isə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu ilə Rusiya və Avropa ölkələrinə çatdırılacaq. Əks istiqamətdə daşınma da Hindistan üçün olduqca sərfəlidir. Hindistanın "Şimal-Cənub" nəqliyyat dəhlizinə maraq göstərməsi isə, İranla yanaşı, Azərbaycanın da iqtisadi maraqlarına uyğundur. Çünki bu vəziyyət Azərbaycan üzərindən daha çox həcmdə yüklərin daşınması deməkdir. Belə vəziyyət Azərbaycanın iqtisadi müstəvidə daha qüdrətli ölkə olması deməkdir və elə ermənilər də qorxudan əsas məqamlardan biri məhz budur. "Şərq Qərb" layihəsindən də Ermənistan kənarda qalır və görünən budur ki, regionda reallaşdırılan digər layihələr də Ermənistan üçün əlçatmaz olacaq. Bunun üçün yeganə yol isə işğal siyasətinə son qoyulmasından keçir.

***Tahir TAĞIYEV***

# Ermənistandan son yüz ildə qovulmuş soydaşlarımıza Bakıda "Deportasiya qurbanları abidəsi"...

**Qasım Hacıyev:** *"Azərbaycanda deportasiya qurbanları abidəsinin qoyulması vacibdir"*

**Çar Rusiyası tərəfindən İran və Türkiyə ərazisindən tarixi Azərbaycan torpaqlarına köçürülən ermənilər ərazilərimizdə yerləşdikdən sonra havadarlarının dəstəyilə tarixi Azərbaycan torpaqlarından soydaşlarımızı deportasiya etməyə başladılar. Erməni şovinistləri tərəfindən XX əsrdə azərbaycanlılar öz ata-baba yurdlarından - Qərbi Azərbaycandan ən azı 3 dəfə deportasiya edildilər.**

Ermənilərin həyata keçirdikləri qanlı deportasiya Azərbaycan tarixinin ən faciəli səhifələrindən birini təşkil edir.

Azərbaycanlılar indi Ermənistan adlandırılan tarixi ərazimizdən ermənilər tərəfindən sonuncu dəfə 1988-1989-cu illərdə deportasiya ediliblər. Ermənistan monoetnik ölkədir, orada bir nəfər də olsa azərbaycanlı yoxdur.

Azərbaycan dövlətinə, xalqına qarşı daim qarayaxma kampaniyası aparan ermənilər tarixi torpaqlarımızdan bizim izlərimizi silməyə çalışırlar. Odur ki, bizim torpaqlarımızda ermənilər qondarma işlər görür, tariximizi silib yerinə öz saxta tarixlərini həkk etməyə çalışırlar. Ermənilər canilərə, faşist törtöküntülərinə, daşnaklara heykəllər ucaldır, onlara abidələr qoyurlar.

Azərbaycanlıların indiki Ermənistan ərazisindən deportasiya edilməsindən 30 ildən artıq bir zaman keçməsinə baxmayaraq, Azərbaycanda nə deportasiya tarixini əks etdirən bir muzeyimiz, nə də deportasiya tarixinin ümumiləşdirilmiş obrazını ifadə edən bir abidəmiz var. Son yüz ildə Ermənistandan deportasiya edilən soydaşlarımızın faciəsini əks etdirən heç bir abidə ucaltmamağımız həqiqətən də təəssüf doğurur. Halbuki, abidə çoxdan ucaldılmalı idi.

AMEA-nın Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev qeyd etdi ki, azərbaycanlıların Ermənistandan (Qərbi Azərbaycandan) deportasiyası və köçürülməsi prosesinə ermənilər bizim ərazilərimizə köçürüldükləri dövrlərdən başlanıb. O vurğuladı ki, Qərbi Azərbaycandan azərbaycanlıların, ümumiyyətlə, müsəlmanların deportasiyası üç mərhələdə aparılıb. Alim vurğuladı ki, birinci mərhələ 1905-1920-ci illəri, ikinci mərhələ 1948-1953-ci illəri, üçüncü mərhələ 1988-1992-ci illəri əhatə edir. Q.Hacıyevin sözlərinə görə, bu proseslər zamanı ermənilər Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, 30 minə yaxın evi dağıdıb və yandırıb, qoca, uşaq və qadınların da daxil olduğu 140 min insanı vəhşicəsinə qətlə yetirib, 750 mindən artıq azərbaycanlı Qərbi Azərbaycandan didərgin salınıb. Sonuncu deportasiyada, 1988-ci ildə isə 220 mindən artıq azərbaycanlı erməni vəhşiliyi nəticəsində doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalıb. Alim qeyd etdi ki, bundan sonra ermənilər Qərbi Azərbaycandan azərbaycanlıların izini itirmək məqsədilə buradakı qəbiristanlıqları, tarixi-mədəni abidələri, dini müəssisələri, məktəb, xəstəxana və digər binaları darmadağın ediblər. Təkcə 1988-ci ildən sonra Qərbi Azərbaycanda ermənilər azərbaycanlılara məxsus 2000-dən artıq qəbiristanlıq dağıdıblar. Ermənilər tarixən azərbaycanlılara, türklərə qənim kəsildikləri halda, bu faktlar gizlədilib, dünya ictimaiyyəti isə bu məsələlərə diqqətsizlik göstərib.




Q.Hacıyev hesab edir ki, bu abidə çoxdan ucaldılmalı və dünyanın müxtəlif yerlərindən gələn insanlara erməni şovinizmini, erməni zülmünü göstərmək üçün bir vasitəyə çevrilməli idi. Q.Hacıyev hesab edir ki, son yüz ildə Azərbaycan xalqının başına gətirilən böyük faciələr sırasında deportasiyalar da acı təəssüratlar doğurur: "Son yüz ildə indiki Ermənistan ərazisindən ermənilər tərəfindən bir neçə dəfə deportasiya edilən soydaşlarımızla bağlı bir abidənin ucaldılması vacibdir. Biz əvvəllər bir neçə dəfə həm deportasiya muzeyinin yaradılmasını, həm də bu qəbildən olan digər tədbirlərin həyata keçirilməsi ilə bağlı təşəbbüslər irəli sürmüşdük. Bildirirdik ki, xalqımızın deportasiya tarixini əks etdirən bütün materiallar, sənədlər toplansın və onların əsasında muzey yaradılsın. Amma deportasiya qurbanları ilə bağlı muzey yaradılmadı, heç abidə də qoyulmadı. Sanki soydaşlarımız öz ata-baba yurdlarından könüllü gəliblər, heç onlara qarşı zülmlər edilməyib, təzyiqlər göstərilməyib, ermənilər onları zorla qovmayıblar. Əslində isə belə deyil, soydaşlarımız öz ata yurdlarından ermənilər tərəfindən dəfələrlə qovulublar, deportasiya ediliblər. Bütün bunları unutmaq olmaz. Təkcə son yüz ildə erməni şovinistlərinin, daşnaklarının soydaşlarımızı bir neçə dəfə öz yurdlarından zorla qovması, deportasiya etməsi hadisəsi baş verib. Bunlar kitablarda, mətbuatda öz əksini tapıb, amma biz kitabları, məqalələri sıravi turistlərə verə bilmərik ki, bizim xalqımıza qarşı belə bir hadisə baş verib, ermənilər azərbaycanlıları öz doğma yurdlarından qovublar. Bunun üçün şəhərin mərkəzində deportasiya qurbanlarına böyük bir abidə ucaldılmalı və həmin abidənin də yanında deportasiyalar tarixini əks etdirən muzey inşa olunmalıdır. Artıq Azərbaycanda deportasiya qurbanları abidəsinin qoyulması vacibdir".

Q.Haciyev təəssüflə qeyd etdi ki, bir çox halda, AMEA-nın aidyyəti institutları, ziyalılar Prezidentin göstəriş verməsini gözləyirlər, halbuki, təklifi ziyalılar, mütəxəssislər verməlidirlər. Onun sözlərinə görə, ölkə başçısı bütün mütərəqqi fikirləri, təklif və təşəbbüsləri cavabsız qoymur, onlara müsbət reaksiya verir. "Bilirsiniz, bəzən də alimlər təşəbbüs irəli sürürlər, amma rəhbərliklər buna dəstək vermirlər. O vaxt mərhum alimimiz İsrafil Məmmədov bir sıra məsələlər qaldırmışdı, amma bunların heç biri həyata keçmədi, unuduldu getdi. Hətta o vaxt Tarix İnstitutunun rəhbərliyi deportasiya və soyqırım şöbəsini bağladı. Onun yerinə isə ayrı şöbə yaratdılar. Bir neçə il olar ki, yenidən deportasiya və soyqırım şöbəsinin fəaliyyəti bərpa olunub. Azərbaycanda bəziləri deportasiya və soyqırım məsələsinin geniş şəkildə təbliğinə mane olurlar. Azərbaycanlıların indiki Ermənistan ərazisindən sonuncu deportasiyasının üstündən 30 ildən çox vaxt keçib, amma biz indiyə qədər deportasiya qurbanlarının xatirəsini əbədiləşdirməmişik. Bu çox acı bir həqiqətdir" - deyə Q.Hacıyev bildirdi.

***İradə SARIYEVA***

**Bu gün hökumətin xüsusi diqqət mərkəzində yer alan məsələlərdən biri də bankların ölkə iqtisadiyyatında daha fəal iştirakına, kreditlər vasitəsilə iqtisadi tərəqqinin stimullaşdırılmasında yaxından iştiraklarına nail olmaqdır.**

# Bankların faiz siyasəti yenə problem yaradır...

Qeyd olunan məqsədlə dövlət tərəfindən banklara lazımi şərait yaradılır, onlar həm vəsaitlə təmin olunur, həm də digər müvafiq tədbirlər görülür. Amma real vəziyyət həm də onu üzə çıxarır ki, banklar onlar üçün yaradılan şəraitdən hələ də, belə demək olarsa, sui-istifadə edir. Hər halda, kredit faizlərinin hələ də yüksək həddə olması bu qənaəti gücləndirir.

Xatırladaq ki, kreditlərin aşağı düşməsini təmin etmək məqsədilə artıq Mərkəzi Bank 2018-2019-cu illərdə uçot dərəcəsini təxminən 2 dəfə azaldaraq 7,5%-ə endirib. Mərkəzi Bankın sədri Elman Rüstəmov Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunları ilə bağlı keçirilmiş müşavirədə bu məsələyə toxunaraq bildirib: "Biz bu siyasətin bank faizlərinə təsirini görürük. Məsələn, son 2 ildə biznes kreditlərinin orta illik faiz dərəcəsi 5 faiz bəndi azalaraq 11%-ə düşüb. Amma bu səviyyə bizi qane etmir və faizlərin daha da azalması istiqamətində işləri davam etdirəcəyik". Bundan başqa, baş bankirin sözlərinə görə, ötən il dövriyyədə olan pul kütləsinin həcmi 24% artırılıb: "Pul siyasətinin yumşaldılması çərçivəsində banklara 2 milyard manatdan çox vəsait verilib ki, onlar bunu kreditləşmə üçün istifadə etsinlər. Ümumilikdə son 3 ildə aşağı inflyasiya, milli valyutanın sabit məzənnəsi, getdikcə azalan xarici borc Azərbaycanın xarici kreditor mövqeyini gücləndirib. Hazırda bizim xaricdə yerləşdirdiyimiz vəsaitlərin məbləği 100 milyard ABŞ dollarından çoxdur ki, bu da öhdəliklərimizlə müqayisədə 2 dəfə çoxdur. Bu da onu göstərir ki, Azərbaycanda möhkəm makroiqtisadi sabitlik, dayanıqlılıq yaradılıb və bu, iqtisadi inkişafa təsir edir".




Yuxarıda qeyd olunduğu kimi isə, bütün bunlar fonunda bankların kredit faizləri hələ də yüksək olaraq qalır. Ekspertlər də hesab edir ki, uçot dərəcəsinin enməsi barədə qərar qəbul edilsə də, bu, kreditlərin ucuzlaşmasında, iqtisadiyyata banklar tərəfindən daha çox vəsait yönəldilməsində özünü hələ də istənilən şəkildə büruzə vermir. Məlumat üçün qeyd edək ki, uçot dərəcəsi Mərkəzi Bankın ölkənin digər banklarını pul kütləsi ilə təmin etməsidir. Yəni burada Mərkəzi Bank kommersiya bankları və digər maliyyə təşkilatlarına kredit verir, onlar isə öz növbəsində həm adi vətəndaşları, həm də müxtəlif şirkət və təşkilatları kreditlə təmin edir. Deməli, uçot dərəcəsi aşağı düşdükcə, kredit faizləri də ucuzlaşmalıdır. Bundan başqa o da faktdır ki, ölkədə inflyasiya səviyyəsi də uçot dərəcəsinin endirilməsinə imkan verir. Belə vəziyyətdə bank kreditlərinin ucuzlaşması mütləq şəkildə həyata keçməlidir. Amma reallıq göstərir ki, Mərkəzi Bank uçot dərəcəsini aşağı salsa da, banklar heç də kreditləri buna görə ucuzlaşdırmır. Bu səbəbdən məsələyə inzibati müdaxilə də zəruri sayılır. Ekspertlər də qeyd edir ki, əslində, kreditlərin faizlərinin aşağı düşməsi üçün bütün amillər var. Əvvəla, yuxarıda qeyd olunduğu kimi, Azərbaycanın iqtisadi inkişaf sürəti və nailiyyətlər buna imkan verir. Digər tərəfdən, problemli kreditlərin həlli ilə bağlı dövlət tərəfindən atılan addımlar banklara böyük dəstək olub. Eyni zamanda, milli valyutanın mübadilə məzənnəsi uzun müddətdir sabitdir və belə görünür, hökumət bu sabitliyi yaxın dövrdə də qorumağa çalışacaq. Rəsmi inflyasiya səviyyəsi də, yuxarıda qeyd olunduğu kimi, aşağı həddədir. Mərkəzi Bankın yumşaq pul-kredit siyasəti, yəni uçot dərəcələrinin aşağı salınması, ehtiyat normalarının minimum səviyyədə olması kimi amillər də kreditlərin aşağı faizlə verilməsini stimullaşdıran faktorlar sırasında yer alır. Bankların cəlb etdikləri resursların ucuz olması da burada mühüm rol oynayır. Amma bunlara rəğmən, kreditlərin istənilən həddə ucuzlaşması baş vermir. Hazırda Azərbaycanda kommersiya banklarının depozit portfeli ilə kredit portfeli arasında faizlər baxımından kəskin fərq var. Ekspertlər hesab edir ki, fərqin yaranmasının əsas səbəbi bankların yenə də daha çox gəlir əldə etməyə çalışmasıdır. Yəni qısa müddətə daha çox gəlir əldə etmək prinsipi banklar üçün prioritet olaraq qalır. Bundan əvvəl banklar tərəfindən belə iddialar da səslənirdi ki, ölkə iqtisadiyyatında risqlərin yüksək olması səbəbindən faizlər yüksəkdir.

**Amma həyata keçirilən son islahatlar bankların bu bəhanəsini də aradan qaldırıb. İqtisadiyyatda risklərin aşağı olması və bunun beynəlxalq maliyyə qurumları tərəfindən də bəyan edilməsi verilən kreditlərin geri qayıtma ehtimalının yüksək olmasını təsdiqləyir. Bu səbəbdən belə vəziyyət də bankların kredit faizlərini aşağı salmasına təsir göstərməlidir. Lakin banklar yenə də faizləri aşağı salmaqdan imtina edir. Elə bu da iqtisadi inkşafın istənilən həddə olmasına maneə yaradan faktorlardan sayılır. Məhz bu mənada, artıq məsələyə inzibati formada hansısa təsir göstərilməsi olduqca önəmli sayılır. Çünki bankların real mövqeyi hökumətin siyasəti ilə tam şəkildə uzlaşmır.**

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Gömrük sistemində aparılan islahatlar: nəticələr, perspektivlər...

**Vətən sərhəddən başlayır, sərhəd isə gömrükdən. Gömrük həm də, obrazlı desək, ölkənin giriş qapısıdır və o "qapı"dan istər daha çox müsafirin, istərsə də daha çox mal və məhsulun daxil olmasının ən ümdə yolu operativlikdən, çevik idarəetmədən, şəffaflıqdan keçir...**

### Büdcə daxilolmalarının artmasının ən sadə yolu - qüsursuz fəaliyyət…

Azərbaycan Respublikası ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra ölkədə aparılan genişmiqyaslı islahatlarla ciddi irəliləyişlərə nail olunsa da, son illər dövlətin uğurlu reformist revanşı ölkə həyatının bütün sahələrində daha fundamental dəyişikliklərə səbəb olmaqdadır. Təbii ki, bu dəyişikliklər ölkənin gömrük sistemindən də yan keçməyib. Nəticədə gömrük orqanları qaranlıq reputasiyalı, mücərrəd fəaliyyətli qurumdan şəffaf fəaliyyəti ilə örnək ola biləcək bir struktur səviyyəsinə qalxıb. Bunun real təsdiqini görmək üçün Dövlət Gömrük Komitəsinin rəsmi elektron saytında yer almış büdcə daxilolmaları üzrə cədvələ vizual nəzər salmaq kifayətdir. Cədvəl 2007-ci ildən üzübəri dövrü əhatə etdiyindən, həmin dövrlə indini müqayisə xarakterli kiçik bir araşdırma apardıq və rəqəmlərin dili ilə dövlətin islahat siyasətinin necə böyük nəticələrə gətirdiyinə şahid olduq. Bu nəticələrə siz də baxın: 2007-ci ilin yanvar ayı üzrə gömrük sistemindən büdcə daxilolmaları 57.716,16 manat təşkil etdiyi halda, 2014-cü ilin eyni dövrü üzrə bu göstərici 97.313,21, yeni yola saldığımız 2019-cu il üçün isə 329.645,70 manat təşkil edib. Göründüyü kimi, fərq inanılmazdır. Əslində isə bu fərqin təkcə ölkəyə daxil olan xalis gəlirin artması ilə deyil, eyni zamanda, gömrük orqanlarının fəaliyyətinin gedərək şəffaflaşdırılması ilə bağlı olduğu mübahisəsizdir.

### Ölkə başçısı genişmiqyaslı reformalara vergi və gömrük sistemindən başlamaqda tam haqlı idi…

Bu isə onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin ölkədə genişmiqyaslı reformalara məhz vergi və gömrük sistemlərindən başlaması çox uğurlu bir siyasətin başlanğıcı oldu. Dövlət başçısı ötən ilin mayında Nazirlər Kabinetində keçirdiyi rüblük müşavirədə bu məsələyə bir daha toxunaraq deyib:"İlin əvvəlindən Azərbaycan iqtisadiyyatında baş vermiş müsbət dəyişikliklər bizim potensialımızı gücləndirir, əhali tərəfindən yüksək qiymətləndirilir və bizə əlavə maliyyə resursu əldə etmək üçün şərait yaradır. Birinci rübdə büdcə daxilolmaları ciddi şəkildə - 200 milyon manatdan çox artıb. Bunun 150 milyon manatdan çox hissəsini vergi sahəsində, 50 milyon manatdan çox hissəni isə gömrük sahəsində əldə etmişik..."

Yanvarın 13-də 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə isə Prezident İlham Əliyev ötən il vergi və gömrük orqanlarında aparılmış islahatlar nəticəsində xəzinəyə plandan əlavə 1 milyard manat vəsait daxil edildiyini bildirib. "Bu, öz növbəsində imkan verdi ki, biz çox geniş sosial paketi əhaliyə təqdim edək və bunu etdik. Hesab edirəm ki, həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paket bu günə qədər reallaşmamışdır"-deyə ölkə başçısı çıxışında qeyd edib.

Elə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev də mətbuata müsahibəsində məhz bu məqamlara toxunub. Onun sözlərinə görə, ölkədə aparılan uğurlu iqtisadi islahatlar fonunda gömrük xidmətində həyata keçirilən reformalar xarici ticarət iştirakçılarının aktivliyini artırıb, biznes mühitinin əlverişliliyinin daha da yaxşılaşdırılması, rəqabətliliyin qorunub saxlanmasını, şəffaflığı təmin edib, eyni zamanda, bununla dövlət büdcəsinə gömrük ödənişləri üzrə daxilolmaların məbləğinin artırılmasına nail olunub.

### Səfər Mehdiyev rəqəmlərin dili ilə nələrdən danışdı...

Komitə sədri deyib ki, son iki ildə "Dövlət büdcəsi haqqında" AR Qanunu ilə müəyyən edilmiş illik büdcə proqnozu ilə müqayisədə dövlət büdcəsinə 2 milyard manat artıq ödəniş təmin olunub: "2019-cu ildə Dövlət Gömrük Komitəsi üçün qanunla təsdiqlənmiş 3 milyard 702 milyon manat büdcə öhdəliyinə qarşı 11 ay ərzində 4 milyard 6 milyon manat gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə köçürülüb, proqnoza 611 milyon 610 min manat və ya 118,02 faiz, ötən ilin faktiki göstəricilərinə nisbətdə 753 milyon 300 min manat və ya 23,2 faiz büdcəyə artıq ödəmələr həyata keçirilib".

Səfər Mehdiyev onu da deyib ki, idxal mallarına qanunvericilik aktlarına əsasən tətbiq edilən azadolmaları nəzərə alsaq, vergitutma bazası 50-55 faiz olmaqla, ötən illə müqayisədə dəyişməz qalıb. Aparılan islahatların məntiqi nəticəsi olaraq, gömrük orqanlarının etibarını qazanan şəxslərə münasibətdə sadələşdirilmiş gömrük rəsmiləşdirilməsini və digər imtiyazları özündə ehtiva edən müxtəlif proqramlardan istifadə edilir. Mövcud proqramların mahiyyətini dövlət-özəl sektor tərəfdaşlığı, gömrük orqanlarının biznes subyektləri ilə qarşılıqlı əlaqələrinin təşkili ilə əsaslandıran Komitə sədri bu cür sadələşdirmə proqramlarının ölkəmizdə tətbiq edilməsi məqsədilə Prezidentin 21 dekabr 2018-ci il tarixli, 427 nömrəli Fərmanı ilə "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ məsələsinə də diqqət çəkərək, həmin buraxılış sistemindən daimi istifadə hüququnun əldə olunması ilə əlaqədar 2019-cu il 1 fevral tarixindən daxil olan müraciətlər əsasında 500-dən artıq xarici ticarət iştirakçısına həm idxalda, həm də ixracda mövcud sistemdən istifadəyə icazələr verildiyini bildirib. Qeyd edək ki, bu sistemin məqsədi xarici ticarət iştirakçıları üçün daha əlverişli şəraitin yaradılmasından, biznesin dövlət tənzimlənməsi mexanizmlərinin effektivliyinin artırılmasından, eyni zamanda, gömrük nəzarətinin risq qiymətləndirilməsi və gömrük auditi əsasında daha çevik və şəffaf həyata keçirilməsindən ibarətdir ki, bununla fiziki gömrük yoxlamaları minimuma enir, ölkənin ixrac potensialı güclənir, məmur-sahibkar münasibətləri təkmil forma alır. Bütün bu yeniliklər isə Azərbaycan gömrüyünün inkişafından, onun beynəlxalq arenada bir çox ölkələrə nümunə göstəriləcək fəaliyyət mexanizminə sahib olmasından xəbər verir.

### Dövlət orqanlarında fəaliyyət şəffaflaşdıqca büdcənin gəlirləri, geniş anlamda götürülsə, ölkənin qüdrəti artır...

Heç kəs üçün sirr deyil ki, 10-15 il əvvəl Gömrük Komitəsi ictimaiyyətə tam qapalı, fəaliyyəti haqqında heç bir məlumat verilməyən, ünvanına ən çox şikayətlərin səsləndiyi bir qurum idi. Bu "qaranlıq" fəaliyyət isə bir çox hallarda gəlirlərin gizlədilməsi, "kölgə iqtisadiyyatı"nın çiçəklənməsi ilə özünü büruzə verirdi. Beləliklə, Gömrük Komitəsi uzun müddət qalmaqallı qurum kimi tanınıb, hətta barəsində illərlə korrupsiyanın və rüşvətxorluğun tüğyan etdiyi qaranlıq bir imic formalaşıb. Lakin bu gün DGK bəlkə də ölkədə yeganə dövlət strukturudur ki, özü öz daxilində korrupsiyaya qarşı ardıcıl mübarizə aparır və konkret nəticələr ortaya qoyur. Ötən il Komitənin bir neçə yüksək çinli məmurunun elə Komitə rəhbərliyi tərəfindən ifşa olunaraq ədalət mühakiməsinə təqdim edilməsi deyilənlərə bariz nümunə sayıla bilər. Elə bu mübarizənin nəticəsidir ki, bu gün ölkənin gömrük sistemində tam şəffaflıq hökm sürür. Bu şəffaflığın əsas göstəricilərindən biri isə qurumun mətbuata açıq olması, qəzet və saytlara öz fəaliyyəti, qaçaqmalçılıqla mübarizəni əks etdirən gündəlik məlumatların verilməsilə özünü göstərir. Bu gün Komitənin Mətbuat xidmətinin, nəinki mətbu orqanlarda, hətta sosial şəbəkələrdə DGK-nın ünvanına səslənən ən kiçik iradın belə dərhal obyektiv şəkildə araşdırılması və ictimaiyyətə dolğun məlumatın çatdırılmasında maraqlı olması düşünməyə əsas verir ki, Komitə şəffaf fəaliyyəti özünün prioritet vəzifələrindən elan edib və heç bir halda fəaliyyətinin üzərinə kölgə düşməsinə imkan vermək istəmir. Bundan əlavə, Gömrük



Komitəsi vaxtaşırı jurnalistlərin sərhəd-keçid məntəqələrinə səfərlərini təşkil etməklə də öz fəaliyyətilə bağlı ölkə əhalisinin daha əhatəli məlumata malik olmasına şərait yaradır ki, bunun özü də qurumun fəaliyyətində şəffaflığın qorunmasında maraqlı olduğuna sübutdur.

### Azərbaycan gömrüyündə ən müasir informasiya texnologiyaları...

Azərbaycanın gömrük sisteminin şəffaf fəaliyyətinin daha bir səbəbi onun son dərəcə müasir və unikal informasiya texnologiyaları vasitələrinə malik olmasıdır. Belə ki, hazırda ölkəyə gətirilən mal və məhsulların ciddi gömrük nəzarətindən keçməsi üçün sərhəd-keçid məntəqələrində hər cür texnoloji vasitələr quraşdırılıb ki, bunun da nəticəsində sərhəddən qaçaq yolla hansısa yüklərin keçirilməsi halları minimuma endirilib. Eyni zamanda, yük avtomobilləri ölkə ərazisinə daxil olduqda onlara xüsusi çiplər yerləşdirilir ki, həmin çiplər vasitəsilə gömrük orqanları yüklər təyinat yerinə çatana kimi onları tam mənasında izləyə bilir. Bu isə istər ölkədə təhlükəsizliyin qorunmasında, istərsə də qaçaqmalçılıq cəhdlərinin qarşısının alınmasında çox ciddi irəliləyişlərə nail olunmasına gətirən unikal yeniliklərdir. Bu yeniliklərdən biri kimi isə Ələt Beynəlxalq Dəniz Ticarəti Limanında istifadəyə verilən Ro-Ro terminalını göstərmək olar. Bu sistemin özəlliyi ondadır ki, ölkəyə mal və məhsulların qəbulunda şəffaflığın təmin olunması ilə yanaşı, həm də sənədləşmə və digər üzücü proseslər avtomatik qaydada həyata keçirilir. Belə ki, Azərbaycanın dövlət sərhədini keçən və bu limana istiqamətlənən yükün elektron bəyannaməsi həmin anda Dövlət Gömrük Komitəsinin xəttilə buradakı Əməliyyat İdarəetmə Sisteminə daxil olur. Nəticədə həm yükün limana gəlmə tarixi bəlli olur, həm onun gözləmə ərazisində yeri ayrılır, həm də ödəmə rüsumu barədə informasiya onlayn formada daşıma şirkətinə göndərilir. Yükə dair məlumat isə limana daxil olan nəqliyyat vasitəsinin qeydiyyat nişanına əsasən əməliyyat sistemində əks olunur və yük sahibi bu məlumatı anında müşahidə edə bilir. Sənədləşdirmə bitdikdən sonra TIR gəmiyə yüklənir, təyinat limanı isə yük, onun çatdırılma vaxtı və gəmi barədə məlumat əldə edir. Beləliklə də əslində çox uzun və yorucu bir proses avtomatik qaydada, heç bir bürokratik əngəl olmadan tez bir zamanda həyata keçirilmiş olur.

### "Qara bazar"ın "ağaran" hesabları...

Azərbaycanın müasir gömrük sistemindən danışarkən "yaşıl dəhliz" və "bir pəncərə" kimi unikal sistemlərin tətbiqindən söz açmamaq olmur. Çünki, məhz bu sistemlərin tətbiqi ticarətin asanlaşdırılmasına, tranzit yüklərin daşınmasının sürətləndirilməsinə xidmət etməklə, "kölgə iqtisadiyyatı"na qarşı mübarizəyə də öz müsbət təsirini göstərib. Dövlət başçısının "kölgə iqtisadiyyatı"na qarşı mübarizənin gücləndirilməsi barədə müvafiq icra orqanlarına verdiyi tapşırıqların yerinə yetirilməsinə dair çağırışlara artıq biznes subyektlərinin də qoşulması isə aparılan xarici ticarət əməliyyatları üzrə uçot və hesabatlılığın düzgün bəyan edilməsini şərtləndirib, nəticədə dövlət büdcəsinə qanunla müəyyən edilmiş vergi və gömrük rüsumlarının vaxtında və artıqlaması ilə ödənilməsi təmin olunub. Dövlət Gömrük Komitəsinin açıqlamasına görə, görülən tədbirlər nəticəsində son iki ildə idxal-ixrac əməliyyatları üzrə səffaflığın təmin edilməsi ilə beynəlxalq iqtisadi münasibətlər kontekstində illik ticarət dövriyyəsi böyük həcmdə artıb ki, bu da "güzgülü statistik uçot"un aparılmasını asanlaşdırır. Eyni zamanda, son iki il ərzində gömrük sahəsində hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi və gömrük xidmətində əməliyyat-axtarış fəaliyyətinin genişmiqyaslı formada həyata keçirilməsi "kölgə iqtisadiyyatı"na vurulan əsas zərbələrdən biri kimi xarakterizə olunur. Belə ki, 2018 və 2019-cu illər ərzində "qara bazar"da satış dəyəri 300 milyon dollarla ölçülən, ümumi çəkisi 3 tondan artıq narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb, eyni zamanda, istehlak bazarında haqsız rəqabətə səbəb ola biləcək kontrafakt malların dövriyyəsinin qarşısı alınıb, qanun pozuntularına qarşı istintaq hərəkətləri həyata keçirilib. Bəşəri bir bəla sayılan "kölgə iqtisadiyyatı"na qarşı mübarizənin gücləndirilməsi məqsədilə gömrük işinin daha da sadələşdirilməsi isə onun təzahürlərinin aradan qaldırılmasında əsaslı rol oynayıb.

### "Biz elə bir gömrük orqanı yaratmalıyıq ki..."

Hələ 1995-ci ilin yanvarında prezident yanında keçirilən müşavirədə Dövlət Gömrük Komitəsinin fəaliyyətinin müzakirəsi zamanı Heydər Əliyev sanki bugünkü gömrük sistemini xəyal edərək demişdi:"Biz elə bir gömrük orqanı yaratmalıyıq ki, o, xarici- iqtisadi əlaqələrimizdə öz yerini tutsun, iqtisadiyyatımızın inkişafına xidmət etsin, bütün hallarda müstəqil Azərbaycanın nüfuzunun yüksəldilməsinə öz töhfəsini versin". Bu gün əminliklə demək olar ki, mərhum prezidentin qoyduğu hədəfə çatılıb. Hazırda xarici iqtisadi əlaqələrin genişlənməsində, iqtisadiyyatın çiçəklənməsində və Azərbaycanın beynəlxalq siyasi arenada nüfuzunun əhəmiyyətli dərəcədə artmasında ölkənin mütərəqqi gömrük sisteminin oynadığı rol danılmazdır. Bu nüfuzun artmasını şərtləndirən daha bir faktor isə son illər Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrlə Şərqlə Qərbi qovuşduran tranzit ölkə rolunda inamla çıxış etməsidir. Artıq ən sərfəli tranzit nəqliyyat sisteminə malik ölkə kimi dünya dövlətlərinin diqqətini getdikcə daha çox üzərinə çəkən Azərbaycanın gömrük sisteminin bundan sonrakı uğurlu fəaliyyəti isə onun perspektiv gələcəyini təmin edəcək əsas amil kimi çıxış edir.

Müasir gömrük sisteminin təkmilləşməsi, ölkəyə mal və məhsulların giriş-çıxışının həm təhlükəsiz, həm də heç bir əngəl və süründürməçilik olmadan operativ həyata keçirilməsi, elə müvafiq dövlət proqramlarında da nəzərdə tutulduğu kimi, həm Azərbaycan insanının rifahına, həm də ölkə iqtisadiyyatının çiçəklənməsinə xidmət edir. Bu istiqamətlərin hər ikisi isə insan amilinə dayanır ki, bu mənada Azərbaycan gömrükçülərinin daşıdığı missiya həm çətin, həm də şərəflidir. Heç şübhə yoxdur ki, ölkənin gömrük strukturları bu əzmkarlığı gələcək illərdə də davam etdirəcək, media ilə qarşılıqlı əlaqələr nəticəsində isə bizlər bu uğurlardan daha çox yaza biləcəyik.

***Samirə SƏFƏROVA***

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim etmək üçün.**

# Min manat maaş alan Azərbaycan müəllimləri 16 yüksək maaş alan ölkələrin müəllimləri sırasına niyə düşmədi...

**Dünya İqtisadi Forumu müxtəlif ölkələrdə 15 il iş təcrübəsi olan orta məktəb müəllimlərinə il ərzində verilən əməkhaqqının məbləğini açıqlayıb. Qeyd edək ki, əks olunan rəqəmlər vergidən öncə ödənilən rəsmi əməkhaqqı ilə bərabər, tibbi sığorta və digər müavinətləri də nəzərə alır.**

*"Ölkəmizdə müəllimlərin maaşı onların təhsil səviyyəsi və iş stajlarına görə dəyişir"*

**Kamran Əsədov:** *"Hazırda müəllimin 1 dərs saatının dəyəri orta hesabla 34 faiz artıb"*



Təcrübəli orta məktəb müəllimlərinə verilən illik əməkhaqqına görə ölkələrin sıralamasında birinci yerdə Lüksemburqdur. Təəssüf ki, ilk 16 ölkənin sırasında Azərbaycanın adı yoxdur.

Halbuki, Azərbaycanda müəllimlərin əməkhaqqının yüksək olması istiqamətində çoxlu sayda iş görülür. Son bir neçə il ərzində müəllimlərin əməkhaqqı dəfələrlə artıb. Hətta elə pedaqoqlar var ki, onların məvacibi 1000 manat və ya bu məbləğdən yüksəkdir.

Məsələ ilə bağlı fikir bildirən təhsil eksperti Kamran Əsədov qeyd etdi ki, bir sıra ölkələrdə müəllimlərin maaşı Azərbaycanla müqayisədə təxminən 10 dəfə artıqdır: "İlk növbədə qeyd etmək istəyirəm ki, 2014-2017-ci illərdə keçirilən və Təhsil Nazirliyinin diaqnostik qiymətləndirməsindən keçən müəllimlərin orta aylıq əməkhaqqı 465 manatdır. Prezident İlham Əliyevin orta təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının 2015-ci ildə 2 dəfə, 2018-ci ildə isə 10 faiz artırılması haqqında sərəncam imzaladı. Ölkə başçısının müvafiq sərəncamından sonra müəllimlərin vəzifə maaşları pedaqoji stajdan asılı olaraq, ali təhsilli müəllim üçün 320 manatdan 410 manatadək, orta ixtisas təhsilli müəllim üçün 290 manatdan 350 manatadək müəyyən edilib. Sərəncama görə, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə artırılmaqla, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılıb. Müəllimin vəzifə maaşının məbləğini 18 saata bölməklə, 1 saatın dəyəri müəyyən edilir. Hazırda müəllimin 1 dərs saatının dəyəri orta hesabla 34 faiz artıb. 2014-cü ildən keçirilən müəllimlərin diaqnostik qiymətləndirilməsindən sonra Azərbaycanda əməkhaqqı artırılan müəllimlərin sayı 100 min nəfəri keçdi. Bu da ölkə üzrə hər 3 müəllimdən birinin əməkhaqqının 2018-ci ilin yanvar ayından artımla ödənilməsi deməkdir. ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Avstraliya və Yaponiyada yaşayan müəllimlər Azərbaycanla müqayisədə təxminən 10 dəfə artıq maaş alırlar".

Ekspertin sözlərinə görə, ölkəmizdə müəllimlərin maaşı onların təhsil səviyyəsi və iş stajlarına görə dəyişir. Buna görə bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılması da önəm kəsb edir: "Məlumat üçün bildirim ki, müəllimlərin sonuncu əməkhaqqı artımı 2019-cu ilin martında baş verib".

**Günel CƏLİLOVA**

# Azərbaycanlı müğənni erməni aktyorla oynamaqdan imtina etdi...

**Məlum olduğu kimi, Azərbaycanın Xalq artisti, məşhur Azərbaycan əsilli tenor Yusif Eyvazov milliyyətcə erməni soprano Ruzan Mantaşyanla bir səhnədə çıxış etməkdən imtina edib.**



**Faiq Sücəddinov:** *"Mən onu "milli qəhrəman" elan etməyin tərəfdarı deyiləm, amma bu addımını təqdir edirəm, dəstəkləyirəm"*

Y.Eyvazovun bu addımı ermənilərin ciddi narahatlığına səbəb olub və hətta bu məsələyə digər erməni opera müğənnisi Asmik Papyan öz "Facebook" səhifəsində münasibət bildirib. "Azərbaycanlı opera müğənnisi, soprano Anna Netrebkonun əri olan Yusif Eyvazov erməni müğənninin iştirakı ilə fevralın 7-də illik Drezden Opera Balının açılış mərasimində çıxış etməkdən imtina etdi. O, açılış mərasimində erməni müğənni Ruzan Mantaşyanla danışmaqdan da imtina edib. Bunu siyasi səbəblərə görə izah edib. Göstərilən opera teatrında dəfələrlə səsləndirdim, belə bir hadisəni xatırlaya bilmirəm. Etiraz səsləndirəcəyəm..." - deyə A.Papyan yazıb.

Y.Eyvazovun erməni soprano ilə bir səhnəni bölüşməkdən imtina etməsinə dünya mediası da yer ayırıb. "Forumopera.com" yazır ki, "milliyyətcə azərbaycanlı Yusif Eyvazov siyasi səbəblərdən milliyyətcə erməni soprano Ruzan Mantaşyanla bir səhnədə çıxış etməkdən imtina edib".

Məlumat üçün bildirək ki, Drezden Opera Balı ilk dəfə 1925-ci ildə təşkil edilib. 1939-cu ildə - II Dünya Müharibəsinin başlamasına qədər səkkiz dəfə baş tutub. 2006-cı ildə Drezdenin qurulmasının 800 illik yubileyi münasibətilə ənənə davam etdirilib. Bu vaxtdan etibarən Bal hər il təşkil olunur.

Drezden Opera Balı təkcə Avropadan deyil, digər ölkələrdən də siyasi, sənət və iş adamlarının nümayəndələrini bir araya gətirir.

Yusif Eyvazovun (tenor) repertuarına dramatik istedad və vokal bacarıqlarını göstərməyə imkan verən opera partiyaları daxildir. Onun adı "Dünyanın ən yaxşı tenorları" kitabına daxil edilib. 2017-ci ildə Y.Eyvazov və həyat yoldaşı A.Netrebko opera ulduzlarının "Half Way Around The World" konsert turunda iştirak ediblər. Tur çərçivəsində altı ölkənin səkkiz şəhərində konsertlər verilib.

Əlcəzairdə dünyaya gələn azərbaycanlı tenor Y.Eyvazovun erməni soprano ilə eyni səhnəni bölüşdürməkdən imtina etməsinə şərh verən Xalq artisti, tanınmış bəstəkar Faiq Sücəddinov hesab edir ki, Y.Eyvazovun bu addımı onun Azərbaycana, dövlətimizə, xalqımıza, işğal altında olan torpaqlarımıza bəslədiyi münasibətin göstəricisidir. "Hər bir insanın öz vətəninə, xalqına, torpağına öz yanaşması var. Y.Eyvazovun erməni soprano ilə eyni səhnədə iştirak etməkdən imtina etməsi onun öz şəxsi yanaşmasıdır. Y.Eyvazov R.Mantaşyanla bir səhnədə çıxış etməkdən imtina etməklə ermənilərə, erməni saxtakarlığına öz münasibətini bildirib. O bir azərbaycanlıdır və məsələyə də azərbaycanlı mövqeyindən yanaşıb, erməni saxtakarlığına, şovinizminə etiraz edib. Mən onu "milli qəhrəman" elan etməyin tərəfdarı deyiləm, amma onun bu addımını təqdir edirəm, dəstəkləyirəm. Bir sənət adamı, bəstəkar kimi Yusifin hərəkətinə dəstək verirəm. Bilirsiniz, Y.Eyvazovun Bakı səhnəsində erməni ilə eyni səhnədə çıxış etməkdən imtina etməsi çox asan bir məsələ olardı, amma o, böyük çətinliklərə qalib gələrək Azərbaycandan kənarda bunu edib. Halbuki, Azərbaycanda yaşayan bəzi müğənnilər erməni ilə oxumaqdan nəinki imtina etmirlər, hətta onlarla birgə oxuyurlar. Mən ad çəkmək istəmirəm, səhnəni bölüşürlər".

*"...böyük çətinliklərə qalib gələrək bunu Azərbaycandan kənarda edib"*

F.Sücəddinov qeyd etdi ki, ermənilər bu gün də bizim qədim mahnı və rəqslərimizi oğurlayaraq Rusiya telekanallarında "erməni musiqisi" kimi təqdim edirlər. O vurğuladı ki, bu yaxınlarda Rusiya kanallarından birində yayımlanan "Dobroye utro" proqramında Azərbaycana məxsus "Qədim Bakı" mahnısını təqdim ediblər.

**İradə SARIYEVA**

№ 6 (4137) ■ Qiymətі: 40 qəpik

# BAKI XƏBƏR

15 YANVAR 2020-ci il

www.baki-xeber.com



# 50 il əvvəl itən qızı tapana yarım milyon dollar mükafat veriləcək

**Avstraliyanın Yeni Cənubi Uels hökuməti 50 il əvvəl itən qız uşağını tapana mükafat verəcək.**

"Qafqazinfo" xəbər verir ki, bu məbləğ 700 min Avstraliya dollarıdır (481 min dollar). Şeril-Qrimmer adlı qız 1970-ci ildə Vullonqonq şəhərinin yaxınlığındakı Fey-Medou çimərliyindən yoxa çıxıb. 3 yaşlı Şeril həmin vaxt çimərlikdə anası və 3 qardaşı ilə birlikdə olub. Şahidlərin sözlərinə görə, qızcığazı naməlum şəxs avtomobilinə doğru aparıb. O vaxtdan Şeril haqda heç bir məlumat yoxdur.

## Elan

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Abşeron Ərazi İdarəsi tərəfindən Səttarova Səadət Cabbar qızının adına 05.09. 2007-ci il tarixində, Abşeron rayonu Xırdalan şəhəri məhəllə 25, ev 4, mənzil 34 ünvanına verilmiş (qeydiyyat nömrəsi 160709003) çıxarış itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Kiş kənd sakini Məmmədov Faiq Əhəd oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0478 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Baltalı kənd sakini Azaqov Məmmədəmin İbrahim oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 303 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakinləri - Hüseyn, Həsən, Adil, Bəxtiyar uşaqları və İlyasova Səmayə Siracəddin qızına məxsus 3312/9214 saylı ev qeydiyyat vəsiqəsi itdiyindən etibarsız hesab edilir.

Rüstəmov Nurağa Şamil oğlunun adına, Bakı şəhəri, Nəsimi rayonu, 5-ci mkr. Asif Məhərrəmov küçəsi, ev 64, mənzil 102 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Əliyeva Kəmalə Poqruz qızının adına, Bakı şəhəri, Binəqədi rayonu, C.Xəndam küçəsi, ev 3 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Əlifova Şərəf Abış qızının adına, Bakı şəhəri, Xətai rayonu, Qədir Məmmədov küçəsi, ev 6, mənzil 20 ünvanının çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Məmmədov Dilqəm Məzahir oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Nizami rayonu, Rüstəm Rüstəmov küçəsi 6, mənzil 28 ünvanına, Bağırova Sevda Aydın qızının adına çıxarış itdiyindən etibarsız sayılır.

## Dubayda selfi muzeyi açıldı

**Dünyanın ilk selfi muzeyi fəaliyyətə başlayıb. "Ted.az" bildirir ki, Dubayda "Selfi Krallığı" adlanan ilk selfi muzeyi fəaliyyətə başlayıb.**

"Selfi Krallığı" maraqlı selfi çəkə bilməyinizə şərait yaradan 15 otaqdan (salondan) ibarətdir. Muzeyin salonları işıqlandırma və kreativ interyeri ilə fərqlənir. Muzeyin memarları bildirirlər ki, otaqların interyeri hər ay yenilənəcək. Qeyd edək ki, ziyarətçilərin foto "ziyarəti" 15 ABŞ dollarına başa gələcək. Muzey gündəlik 11:00-dan 20:00-dək açıqdır.

## Yuxusuzluq kişilərdə bu xəstəliyə gətirib çıxarır

**Yuxu pozğunluğunun müxtəlif xəstəliklərə yol açdığı bəllidir. İsveçli alimlərin araşdırması nəticəsində məlum olub ki,yuxu pozğunluğu gənc kişilərdə alzhemer xəstəliyi riskini artırır.**

"Medicina.az" bildirir ki, bu risk yuxusuzluq səbəbindən kişilərin qanında alzhemer xəstəliyinə bağlı protein səviyyəsinin artırması ilə bağlıdır. Araşdırma üçün, təqribən yaş ortalaması 22 olan 15 kişinin yuxudan əvvəl və sonra qanlarındakı tau protein səviyyələri ölçülüb. Yuxusuz keçən gecənin ardından tau proteini 17% artıb. Normal yuxu yatdıqda isə bu səviyyə 2% təşkil edir. Alimlər bildirir ki, xüsusilə gənc yaşlarda olan kişilər yuxu rejimlərinə diqqət etməlidir. Araşdırmaçılardan Conatan Cedernas, bu tədqiqatların əhatəliliyinin kiçik olduğunu,qadınlar üçün eyni vəziyyətin keçərli olub-olmadığının hələ bilinmədiyini qeyd edib.







**Qoç** - Ailə bağları möhkəmlənir, uzun müddət sərbəstlikdən zövq alan yalqız insanlar isə nikah barədə fikirləşməyə başlayırlar. Bu gün başlanan istənilən münasibət uzunmüddətli olacaq və insanlara böyük təsir göstərəcək.



**Buğa** - Yaşlı qohumlarınızla aranızdakı münasibətlər gərginləşir. Onlar sizin zəifliklərinizi, səhvlərinizi göstərməkdən usanmırlar. Ancaq sevdiyiniz şəxslə münasibətləriniz yaxşı olacaq və birlikdə xoş vaxt keçirəcəksiniz.



**Əkizlər** - Gün sakit axarlıdır. Məqsədyönlü Buğalar istədiklərinə çatacaqlar. Düzdür, bu, elə də sürətlə baş verməyəcək. Amma sizin səbriniz böyükdür. Yeni iş ortaqları ilə münasibətləri düzəltmək imkanı yaranır.



**Xərçəng** - Bu gün baş verən hadisələrlə sizin öz əməlləriniz arasında bir bağ tapmaq çətin deyil. Odur ki, bir çətinlik yaransa, tələsik günahkar axtarmağa çalışmayın. Əgər hadisələr xoşunuza gəlmirsə, çalışın, hay-küyə düşməyəsiniz.



**Şir** - Sizə təklif edilən xeyirxahlığın içində yamanlıq axtarsanız, onu əldən vermiş olarsınız. Hər işi vaxtında görüb qurtarın. Öz işinizə görə heç kəs sizə yalvaran deyil. Bütün insanlara hörmətlə yanaşın.



**Qız** - Özünüzü vəziyyətin ağası kimi hiss edəcəksiniz. Nəzərdə tutduğunuz xeyriyyə tipli məsələləri həll etmək sizin üçün çətinlik törətməyəcək. Səhhətinizdən şikayətiniz olmayacaq.



**Tərəzi** - İntuisiyanız sizə başqalarına mane olmadan öz mənafelərinizi qorumaq üçün nəyi necə etməyi yaxşı tövsiyə edir. Yalnız bir şey uğurunuzun qarşısını kəsə bilər - öz gücünüzə inamsızlıq, kimdənsə haqlı olduğunuza dair rəy gözləməyiniz.



**Əqrəb** - Maraqlı layihələr, uğurlu investisiyalar üçün uğurlu gündür. Bu gün geniş miqyasda fikirləşmək, gələcək üçün planlar qurmaq çətin deyil. Bütün bunları həmfikirlərlə müzakirə etmək isə çox maraqlı və xoş olacaq.



**Oxatan** - Əgər maddi vəziyyətinizi yüksəltmək qayğısına qalmasanız, çox tezliklə peşiman olacaqsınız. İndi biznes planlarını həyata keçirmək üçün imkanlarınız genişdir. Bacardıqca az əsəbiləşin.



**Oğlaq** - Səhhətinizdən şikayətiniz olmayacaq. Özünüzü güclü hiss edəcəksiniz. Maddi durumunuzu artırmaq hələ ki, müşkül işə çevrilib. Bununla belə, ümumi ovqatınız cox yüksəkdir.



**Dolça** - Özünüzü güclü hiss edəcəksiniz. Əsəbi keçən bu gün sizə maddi heç nə vəd etmir. Ünsiyyətlərinizdə diqqətli olun. Maddi imkansızlıq problemlərinizi çoxaldır. Dözümünüzü artırın.



**Balıqlar** - Məxaricіniz mədaxilinizdən çoxdur. Prinsiplərinizə uyğun gəlməyən mənbələrdən imtina etməyinizin yeri var. Sizi vicdanlı və ağıllı adam kimi tanıyırlar. Bu, əslində, belədir. Ünsiyyətdə güzəştə gedin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Hindistanlı ixtiraçı təcavüzkarlardan qoruyan "dodaq boyası" hazırlayıb



**Hindistanın Banaras Universitetinin tələbəsi Şyama Çaurasi xanımlar üçün dodaq boyasına bənzəyən şəxsi təhlükəsizlik cihazı hazırlayıb.**

"İctnews.az" bildirir ki, partlayış səsini xatırladan siqnal çıxardan qurğu ərazinin koordinatlarını təcili yardım nömrəsinə göndərir. "Dodaq boyası"nı işlək hala gətirmək üçün cihazı futlyarındakı düyməyə sıxmaq kifayətdir. Qurğu mobil telefon vasitəsilə enerji toplayır və "Bluetooth" vasitəsilə qoşulur.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.